RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 67 (9522) 2 aprel 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan son şans verir

## Vəziyyətin gərginləşməsinə və hər hansı baş verəcək təxribata görə məsuliyyət İrəvanın və onun havadarlarının üzərinə düşəcək

Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsinin, zirehli texnikasının, artilleriya qurğularının, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkətinin müşahidə edilməsi haqlı olaraq suallar yaradır. Məsələ ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi xəbərdarlıq edərək bildirib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq. Bu barədə məlumatda bəyan edilib ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistanın və onun havadarlarının üzərinə düşəcək.

Aprelin 5-nə planlaşdırılan ABŞ-Aİ-Ermənistan konfransından ruhlanan ermənilərin hansısa hoqqalardan çıxmaları, sülh danışıqları və münasibətlərin normallaşdırılması prosesinə zərbə vurmaq istəmələri gözləniləndir. Çünki bu gün Qərbin adıçəkilən siyasi dairələrinin Cənubi Qafqazla bağlı mövqeləri və planları Ermənistanı sülhə yox, revanşizmə sövq edir. Başqa cür desək, Qərb dairələri məqsədyönlü şəkildə İrəvanı sülh prosesini pozmağa həvəsləndirirlər. Və bundan cəsarətlənən Ermənistan hərbi-siyasi rəhbərliyi sadəlövhcəsinə nəsə əldə edəcəyinə inanır.

Əlbəttə, buna bənzər hadisələr əvvəllər də çox olub. Hələ Vətən müharibəsinə qədər Ermənistan məlum siyasi dairələrə arxalanaraq Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamışdı. Haqq-ədalət Azərbaycanın tərəfində olsa da, məhz Qərb siyasi dairələrinin dəstəyi ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini tapdalayır və hətta ölkəmizi yeni müharibə və işğalla təhdid edirdi.

→ 8

# Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir

## Prezident İlham Əliyev Rumıniyanın energetika nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğu məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirildi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu qeyd edərək, dövlət başçıları, eləcə də digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi-ticari əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəminə toxunaraq bu iclasın gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda enerji sektorunda, xüsusilə indiki dövrdə "yaşıl enerji" sahəsində böyük layihələrin reallaşdırıldığını deyərək, ötən ay Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmini vurğuladı.

Sebastiyan İoan Burduja İlham Əliyevə prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən işlərin, Bakının gözəlliyinin və inkişafının onlarda dərin təəssürat doğurduğunu dedi.

Azərbaycan Prezidenti təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

→ 2

# Prezident İlham Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşılan fotonu təqdim edir.




# Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC-ın xəbərinə görə, paylaşımda deyilir:

"Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".




# "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Elçin Yusubov - Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri:**

Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Anar Kərimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2024-cü il*

# Ermənistan Azərbaycan ilə şərti sərhəddə qoşunlarını cəmləşdirməyə və hücum xarakterli dayaq məntəqələri qurmağa davam edir

**Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələri və döyüş texnikasının cəmləşdirilməsi barədə 2024-cü il martın 31-də Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumat yayılıb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, şərti sərhəd boyu Ermənistanın qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələrini qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrini yaratması, fortifikasiya qurğularını inşa etməsi bölmələrimizin sərəncamında olan xüsusi texniki vasitələr və vizual müşahidə ilə qeydə alınıb. Yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələri yerləşdirilir.

"Bir daha bəyan edirik ki, Azərbaycan Ordusu tərəfindən Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarlarının üzərinə düşəcək", - deyə məlumatda vurğulanıb.



# Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir

## Prezident İlham Əliyev Rumıniyanın energetika nazirini qəbul edib



Əvvəli 1-ci səh.

Söhbət zamanı energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq Azərbaycandan təbii qazın və Qara Dəniz vasitəsilə "yaşıl enerji"nin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, LNG, "yaşıl enerji" və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir və Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndiyinə toxunuldu, ötən il ticarət dövriyyəsinin daha əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatdığı qeyd olundu, investisiya sahəsində də əməkdaşlığın möhkəmləndiyi bildirildi. SOCAR-ın Rumıniyada çox aktiv fəaliyyətinə toxunularaq onun bu ölkənin yanacaq bazarında kifayət qədər əhəmiyyətli yer tutduğu diqqətə çatdırıldı.

Söhbət zamanı kənd təsərrüfatı, səhiyyə və təhsil sahələrində də əməkdaşlığın genişlənməsi məmnunluqla vurğulandı.

# Azərbaycanla Çin arasında münasibətlər yüksək inkişaf dinamikasına malikdir

Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qo Min ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova deyib ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında münasibətlər yüksək inkişaf dinamikasına malikdir. Azərbaycan ilə Çin arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və ölkələrimiz bir çox sahələrdə uğurla əməkdaşlıq edir. Sahibə Qafarova qeyd edib ki, xanım Qo Minin ölkəmizdəki diplomatik fəaliyyəti dövrü də əlaqələrimizin inkişafı ilə xarakterizə olunub.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan və Çinin dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoq ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı üçün möhkəm zəmin yaradıb. O cümlədən dövlət başçıları arasında ən yüksək səviyyədə təmaslar iki ölkə arasında bütün sahələrdə əlaqələrin dərinləşməsində və inkişafında mühüm rol oynayır. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına 5 rəsmi səfəri qeyd edilib.

Görüşdə qeyd olunub ki, Heydər Əliyev Fondu iki ölkə arasında mədəni və humanitar mübadilənin əsas hərəkətverici qüvvəsi hesab olunur. Çinin Xarici Ölkələrlə Dostluq Xalq Cəmiyyəti ilə birgə müxtəlif layihələr uğurla həyata keçirilir.



Söhbət zamanı bildirilib ki, ölkələrimiz üçün xüsusi əhəmiyyət daşıyan məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycan hər zaman birmənalı olaraq "vahid Çin" siyasətini, onun ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Çin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hər zaman dəstək verib. O cümlədən ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək göstərir.

Azərbaycan və Çin arasında parlamentlərarası əməkdaşlıq məsələlərinin də müzakirə olunduğu söhbət zamanı vurğulanıb və qeyd olunub ki, bu istiqamətdə əməkdaşlıq ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına xidmət edir. Bildirilib ki, hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Bununla yanaşı, qeyd edilib ki, həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində parlamentlərarası əlaqələri daha da genişləndirmək imkanları var.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qo Min Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu bildirərək deyib ki, Azərbaycanla Çin arasında münasibətlər dinamik və sabit inkişaf edir. Diplomat əlaqələrin inkişafında dövlət başçıları arasında münasibətlərin vacib rolunu vurğulayıb. Çin Xalq Respublikasının Sədri Si Cinpin ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərdiyini xatırladıb.

Diplomat COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdırıb. Səfir parlamentlərarası əlaqələrin ölkələr arasında münasibətlərin inkişafında mühüm rolunu qeyd edərək, Çin üçün əsas məsələlərdə göstərilən dəstəyə görə Azərbaycan parlamentinə təşəkkür edib.

Görüşdə qeyd edilib ki, qədim İpək yolu xalqları birləşdirir. Bu gün də ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan Çin Xalq Respublikası Sədrinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir. Ölkəmizdə bu istiqamətdə mühüm layihələr həyata keçirilmiş, Azərbaycanın nəqliyyat imkanları xeyli artmış və iri iqtisadi layihələrin həyata keçirilməsi üçün yeni imkanlar yaradılmışdır.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən nəhəng bərpa və yenidənqurma işləri, o cümlədən "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" layihələri barədə də məlumat verilib.

Səfir Qo Min həmin ərazilərdə olduğunu və görülən işləri öz gözləri ilə gördüyünü bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev: Yeni dövrün yeni hədəfləri olmalıdır




"Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır.

Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 133-cü kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində söyləyib. Üç saata yaxın davam edən müsahibədə Prezident İlham Əliyev jurnalistlərin 20-dək istiqamət üzrə suallarını cavablandırıb. Müsahibənin tam mətni ilə çoxcildliyin yeni kitabında tanış olmaq mümkündür.

Kitabda toplanmış materiallar 2023-cü ilin dekabrından 2024-cü ilin fevralınadək olan dövrü əhatə edir.

Yeni nəşrdə Prezident İlham Əliyevin Azərbaycan Respublikasının növbədənkənar prezident seçkilərində Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səsvermədə iştirakına və inamlı qələbəsinə dair materiallar, müstəqilliyimiz dövründə ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilmiş prezident seçkilərində qazandığı qələbə münasibətilə göndərilmiş təbrik məktubları verilib. Bu təbriklər sırasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Rusiya Prezidenti Vladimir Putinin, Çin Xalq Respublikasının Sədri Si Cinpinin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Serbiya Prezidenti Aleksandar Vuçiçin, İran Prezidenti Seyid İbrahim Rəisinin, Belarus Prezidenti Aleksandr Lukaşenkonun, Tacikistan Prezidenti Emoməli Rəhmonun və digər dövlət başçılarının məktubları yer alıb.

Prezident İlham Əliyev yanvar ayında Lənkəranda və Neftçalada səfərlərdə olub. Səfər zamanı dövlətimizin başçısı "Lenk Fruit" MMC-nin Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olub. Həmçinin Lənkəran regional "ASAN xidmət" Mərkəzinin açılış mərasimində iştirak edib, Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılmış şəraitlə, "Laran" MMC-nin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub və Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib. Prezident Neftçalada içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib. Bütün bunlara dair materiallar 133-cü kitabda yer alıb.

Kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanla, Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqla, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərliyi ilə Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyəti və digər yüksəksəviyyəli qonaqlarla görüşləri haqqında informasiyalar verilib.

Yeni kitaba Prezidentin Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya yeni qəbul edilmiş "Akıncı" hücum PUA-larının uçuşlarını izləmə mərasimində iştirakına aid material da daxil edilib.

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətinin mətni də bu nəşrdə yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 133-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycanın energetika naziri rumıniyalı həmkarı ilə görüşüb

Azərbaycanın energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan rumıniyalı həmkarı Sebastiyan İoan Burduja ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Hökumətlərarası Komissiya çərçivəsində baş tutan görüşdə Azərbaycan və Rumıniyanın strateji tərəfdaşlıq əsasında münasibətləri inkişaf etdirən dost ölkələr olduğu vurğulanıb. Əməkdaşlıq əlaqələrinin yeni inkişaf mərhələsinə yüksəlməsində strateji əhəmiyyətli enerji layihələrinin rolundan bəhs olunub. Bu xüsusda, "Xəzər - Qara dəniz - Avropa" "yaşıl enerji" dəhlizi, "Qara dəniz LNG" layihəsi, "Həmrəylik Halqası", SOCAR və "Romgaz S.A." arasında qaz tədarükü, həmçinin "Transgaz" ilə qaz nəqli üzrə əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair müzakirələr aparılıb. Neft və neft məhsullarının ticarəti sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub.

"Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası çərçivəsində "yaşıl enerji dəhlizi" layihəsinə Rumıniyanın dəstəyi yüksək qiymətləndirilib. Bu dəhliz üzrə birgə müəssisənin yaradılması üçün məsləhətçi hüquq şirkətinin müəyyənləşdirilməsi və Ümumi və ya Ortaq Maraqlar Layihəsi (PCIs/PMIs) statusuna müraciət istiqamətində görülən tədbirlər nəzərdən keçirilib. Layihənin icra prosesinin sürətləndirilməsi ilə bağlı səylərin gücləndirilməsinin vacibliyi qeyd olunub.

Söhbət zamanı enerji məsələlərinin tənzimlənməsi sahəsində hər iki ölkənin müvafiq qurumları arasında intensiv əlaqələrin qurulması və əməkdaşlığın gücləndirilməsi məqsədilə zəruri tədbirlərin görülməsi razılaşdırılıb.

# Məhkəmə-hüquq sistemində islahatların yeni mərhələsi başlayıb

Aprelin 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Əli Hüseynli gündəliyə Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi, Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi, Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi, Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi, Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında 7 məsələnin daxil edildiyini bildirib. Qeyd olunub ki, bu məsələlər ölkə Prezidentinin təqdimatı əsasında müzakirəyə çıxarılıb.

İclasda çıxış edən Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Məhkəmə-Hüquq Şurası tərəfindən və məhkəmə sistemində görülən işlər barədə söhbət açıb. O, məhkəmə-hüquq sistemində islahatların davamlı olaraq həyata keçirildiyini, Azərbaycan Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə bu sahədə yeni mərhələnin başlandığını bildirib. Qeyd olunub ki, həmin sənədə əsasən, müəyyən edilmiş istiqamətlər üzrə Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə, məhkəmə hakimiyyəti tərəfindən müvafiq tədbirlər görülür. Həmçinin Milli Məclisin məhkəmə-hüquq sahəsində aparılan islahatların həyata keçirilməsi üçün qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində atdığı addımlardan da bəhs edilib. Çingiz Əsgərov Məhkəmə-Hüquq Şurasının tərkibinin yenidən formalaşdırıldığını, yeni tərkibin Şuranın fəaliyyətinin gücləndirilməsi və məhkəmə hakimiyyətinin inkişafı istiqamətində gördüyü işlərdən danışıb. O, habelə, hakimlərin təyin edilməsi proseduru, onların peşəkarlığının artırılması, sayının çoxaldılması, məhkəmə icraatının səmərəliliyinin, qərarların keyfiyyətinin yüksəldilməsi barədə fikirlərini açıqlayıb.



Bildirilib ki, hakimlərin vəzifələrində irəli çəkilməsi ilə bağlı bir sıra meyarlar müəyyən edilib. Namizədlikləri irəli sürülmüş hakimlərin peşəkarlığı, iş təcrübəsi nəzərə alınaraq, ümumilikdə 32 hakimlə bağlı məsələlər müzakirəyə təqdim olunur. Onlardan 2 nəfərin Apellyasiya məhkəmələrinin hakimi vəzifəsindən azad edilərək Ali Məhkəmənin hakimləri təyin olunması, 1 nəfərin Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi, 21 nəfərin birinci instansiya məhkəmələrindən azad edilərək Apellyasiya məhkəmələrinə hakim təyin edilməsi, 6 nəfərin Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək birinci instansiya məhkəmələrinə hakim təyin edilməsi, 2 nəfərin isə yerinin dəyişdirilərək bir Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək digər Apellyasiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi təklif olunur.

İclasda çıxış edən komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Nizami Səfərov, Fəzail Ağamalı, Bəhruz Məhərrəmov, Elşən Musayev, Azay Quliyev, Vüqar İskəndərov, Tahir Kərimli ölkəmizdə məhkəmə-hüquq sisteminin fəaliyyəti ilə bağlı fikirlərini açıqlayıb, qeyd və təkliflərini səsləndiriblər. Çıxışlarda məhkəmələrin işinin müasir dövrün tələblərinə uyğun qurulmasının, onların fəaliyyətində şəffaflıq prinsiplərinə əməl olunmasının, məhkəmə qərarlarının icra mexanizmlərinin təkmilləşdirilməsinin əhəmiyyətindən söhbət açılıb. Deputatlar namizədlikləri təqdim olunmuş şəxslərin iş təcrübələri, mənəvi keyfiyyətləri barədə danışıblar.

Sonra komitə sədri Əli Hüseynli Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin yeni qanunvericilik bazasının əsasında qurulduğunu söyləyib. Bildirilib ki, ölkə Prezidentinin 2019-cu ildə imzaladığı müvafiq fərmanı ilə məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının yeni tərkibinin formalaşdırılması bu sahədə fəaliyyətin səmərəliliyinin daha da artırılmasına öz töhfəsini verəcək. Komitə sədri hakimlərin təyinatı ilə bağlı məsələyə toxunaraq, yuxarı instansiya məhkəməsinə daha təcrübəli, peşəkar hakimlərin irəli sürülməsinin önəmindən bəhs edib.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Kərəm Mansurov səsləndirilən fikirlərə münasibət bildiriblər, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda gündəlikdəki yeddi məsələnin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Aydın Zöhrab oğlu Kərimov Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

2. "Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 yanvar tarixli 2460 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 76 (Cild I) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2024-cü il*

## "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılsın.

2. "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra - Xidmət) adları çəkilən şəhərə və rayonlara əhalinin qayıdışı ilə əlaqədar mövcud mənzil fondunun qorunması və saxlanılması, yeni çoxmənzilli bina və fərdi yaşayış evlərinin tikintisinin təşkili, habelə onların idarə edilməsi, eləcə də müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

4. Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurası sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

7. Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3381 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3382 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 21 oktyabr tarixli 3548 nömrəli, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2023-cü il 26 may tarixli 3908 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3381 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 793 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə "Qarabağ İqtisadi Rayonunda" sözləri və "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin.

2. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 794 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin və həmin hissədən "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan" sözləri çıxarılsın.

3. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 3548 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1197 (Cild I) 1-ci hissəsində "Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda" sözləri "Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsində "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin.

5. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 3908 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 706 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2. birinci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin və həmin hissədən "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan" sözləri çıxarılsın.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 45-ci hissədə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.2. 46-cı hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

1.3. 47-ci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nin 4.7.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.7.4. İdarənin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən İdarənin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

3. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 745 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında, 1-ci və 2-ci hissələrdə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

3.2. 3.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

3.3.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

3.3.2. 1.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

3.3.3. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

4. "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 746 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında, 1-ci və 2-ci hissələrdə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

4.2. 3.1-ci bənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla)" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

4.3.1. adında "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

4.3.2. 1.1-ci bənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla)" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

4.3.3. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

5. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında, 1-ci, 2-ci hissələrdə və 3.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

5.2.1. adında və 1.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2.2. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

6. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.11.7.25-ci yarımbənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

6.2. 1.11.7.26-cı yarımbənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

6.3. 1.11.7.27-ci yarımbənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2024-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra - Xidmət) adları çəkilən şəhərə və rayonlara (bundan sonra - müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar mövcud mənzil fondunun qorunması və saxlanılması, yeni çoxmənzilli bina və fərdi yaşayış evlərinin tikintisinin təşkili, habelə onların idarə edilməsi, eləcə də müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Xidmət Xankəndi şəhərində yerləşir.

## 2. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə mövcud mənzil fondunun qorunmasını və saxlanılmasını təmin etmək;

2.1.3. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək həmin binaları, habelə müvafiq ərazidə mövcud mənzil fondunu müvəqqəti idarə etmək;

2.1.4. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.5. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.6. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək.

## 3. Xidmətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.2. qanunla müəyyən edilmiş qaydada yaşayış sahələrinin sahibləri müəyyən edilib onlara təhvil verilənədək müvafiq ərazidə mövcud mənzil fondunu qoruyub saxlamaq və müvəqqəti idarə etmək;

3.1.3. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək bu binaları müvəqqəti idarə etmək;

3.1.4. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə olan tələbatının ödənilməsini təmin etmək;

3.1.5. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.6. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqqın daxil olduğu yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə haqq almaq;

3.1.7. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.8. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.9. müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.10. müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.11. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.12. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətlərini göstərmək və bu xidmətlərə (o cümlədən bu Nizamnamənin 3.1.4-cü yarımbəndində göstərilən hallarda) görə haqq almaq;

3.1.13. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini və yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.14. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.15. müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.16. Xidmətə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.17. müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.18. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.19. müvafiq ərazidə dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.20. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.21. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.22. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.23. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.24. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Xidmətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.25. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.26. Xidmətə ayrılan büdcə vəsaitindən (o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün), kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.27. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Xidmətin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.28. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.29. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.30. Xidmətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.31. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. müvafiq sahədə şəhərsalma sənədlərinə uyğun olaraq mövcud çoxmənzilli binalara və fərdi yaşayış evlərinə münasibətdə tikinti fəaliyyətini həyata keçirmək;

3.2.4. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.5. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.6. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.7. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.8. Xidmətin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.9. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Xidmətin idarə olunması

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Müşahidə Şurası (bundan sonra - Şura) Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən - Şuranın sədrindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçi səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Xidmətin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Xidmətin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Xidmətin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Xidmətin təsərrüfat cəmiyyətlərinin yaradılması və onlarda iştirak barədə, həmçinin Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Xidmətin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Xidmətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Xidmətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Xidmətin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Xidmətin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Xidmətdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.8. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İcraçı direktora göndərilir.

4.14. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. Xidmətin fəaliyyətini təşkil etmək;

4.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.3. Şuranın qərarlarını icra etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.26-cı yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. bu Nizamnamənin 3.1.20-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.9. Xidmətin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.23.10. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.23.11. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.23.12. özünün və Xidmətin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.23.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.23.14. Xidmətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.23.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmətin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.23.16. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.23.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.23.18. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.23.19. Xidmətin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.23.20. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.23.21. Xidmətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.23.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

## 5. Xidmətin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Xidmətin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Xidmətin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Xidmətin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Xidmətin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

## 6. Xidmətin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Xidmətin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

## 7. Xidmətdə uçot və hesabat

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Xidmətin ləğvi və yenidən təşkili

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Sükan etibarlı əllərdədir



Əsrlərdir ki, insanlar mənzilbaşına tez, rahat və təhlükəsiz çatmaq üçün müxtəlif minik vasitələrindən istifadə edirlər.

Minik vasitələri müxtəlif cür olaraq, müxtəlif zamanlarda dəyişib, inkişaf etdirilib, yenilənib.

Keçmişə ötəri nəzər salmaqla belə bu təkamülü və dəyişmələri aydın görmək mümkündür.

QURUDA:

*At, araba, fayton, daha sonralar isə müxtəlif ölçülü və təyinatlı maşınlar...*

SUDA:

*Qayıq, yelkənli qayıq, gəmi, nəhəng gəmibərələr...*

HAVADA:

*Təyyarə, helikopter, mülki və hərbi təyinatlı reaktiv təyyarələr...*

ƏN SON DÖVRLƏRDƏ İSƏ:

*Pilotsuz uçuş aparatları, pilotsuz təyyarələr, dronlar və s.*

**Bunların hamısı bəşəriyyətin nail olduğu müxtəlif kəşflər sayəsində, insan zəkasının məhsulu olaraq yaradılıb.**

**Hamısı da insanlar tərəfindən idarə olunub.**

İdarəetmə əvvəlcə cilovdan başlayıb, hazırda isə uzaq məsafədən belə reallaşdırıla bilir.

❖ ❖ ❖

*İdarəetmə özü bir bacarıq, qabiliyyət, çox qısa anda qərar qəbul etmək, yaranan qəfil maneə və təhlükələrdən çıxmaq bacarığı tələb edir.*

*İdarəetmə həm də müxtəlif vəziyyət və təhlükələri irəlicədən görmək, duymaq, hiss etmək, mənzilbaşına özünü və taleyini sənə etibar etmişləri sağ-salamat çatdırmaq məharətidir.*

**Ən çox "sərnişin"i olan ən nəhəng gəmi isə "dövlət gəmisi" sayılır.**

**"Dövlət gəmisi"nin üzdüyü ümman heç də həmişə sakit və təhlükəsiz olmur.**

Bəzən gəmini sualtı qayalıqlardan, fırtına və tufanlardan sağ-salamat keçirərək mənzilbaşına çatdırmaq lazım gəlir.

Bu isə gəminin sükanından yapışmış gəmi kapitanının bacarıq və qabiliyyətindən, təhlükələri dəf etmək məharətindən, şahə qalxan dalğaların təhlükəsini ötüşdürmək istedadından asılı olur.

*Xoşbəxt o xalqdır ki, onun "dövlət gəmisi"nin sükanı arxasında zəkalı, uzaqgörən, hər bir çətin situasiyadan baş çıxaran, anında ən düzgün qərar qəbul edən, öz "sərnişin"lərini istədiyi limana rahat və təhlükəsiz çatdıra bilən kapitanı var.*

❖ ❖ ❖

**İlham Əliyev maşın sürməyi sevir.**

**Xüsusən Qarabağ və Şərqi Zəngəzur ərazisində.**

Adətən, bölgəyə səfərləri zamanı (sürətli və möhtəşəm quruculuq işləri ilə bağlı belə səfərlər tez-tez baş verir) sürücüyə "zəhmət vermir", özü sükan arxasına əyləşir.

**Dəfələrlə belə səfərləri - radioda xoş bir melodiyanın səslənməsi və Mehriban xanımın çəkilişləri ilə müşayiət olunan səfərləri sevə-sevə izləmişik.**

*Prezidentimiz Müzəffər Ali Baş Komandan kimi işğaldan azad etdiyi bölgələrə ürək açıqlığı ilə, yenicə çəkdirdiyi təzə yollarla səfərlər edir, biz isə Qarabağa azadlıq gətirən xilaskarımızı sevinc və şadlıqla seyr edirik!*

**Həm də fəxr edirik!**

*Dünyanın elə dövlət başçıları var ki, yıxıla-dura güclə yeriyir, danışanda medianın hədəfinə çevrilən yanlışlıqlara yol verirlər.*

**Azərbaycan Prezidenti İlham Əliyev isə turnikdə çətin olan dartınma hərəkətləri edir, daş qaldırır, müxtəlif markalı maşınları asan və rahatlıqla idarə edir.**

Həm də təkcə öz avtomobilini yox!

*Əziz dostu və qardaşı R.T.Ərdoğanın ona hədiyyə etdiyi Türkiyənin ilk TOGG elektrikli avtomobilindən tutmuş digər markalaradək!*

**İlham Əliyev hərbi maşınları, PUA-ları da çox sevir!**

Həm də yenilərini, yeni texnologiyalar əsasında istehsal olunanları, daha güclülərini və "ağıllı"larını.

*Bütün bunları, adətən, özü seçir, özü bəyənir.*

Sonra isə dost ölkələrdən əldə edərək Azərbaycan Ordusunun sərəncamına verir.

**Amma əvvəlcə fərdi baxışından keçirir, PUA-ları ehmallıqla "sığallayır", hərbi maşınların isə sükanı arxasına keçərək şəxsən sınaqdan çıxarır.**

*44 günlük Zəfər müharibəsində İlham Əliyevin seçərək aldığı PUA-lar və hərbi texnika düşmənin darmadağın edilərək Azərbaycan torpaqlarından qovulmasında çox mühüm rol oynadı!*

Biz bütün bunları mavi ekranlarda izlədik, Ermənistan ordusunun dəqiq zərbələrdən qaçaraq fərarilərə çevrildiklərinin, gizlənməyə deşik axtardıqlarının şahidi olduq!

Amma ağıllı PUA-larımız onlara aman vermədi, sonadək "axtarıb taparaq" axırlarına çıxdı, ərazilərimiz murdar ləpirlilərdən təmizləndi!

**Yaxınlarda Müzəffər Ali Baş Komandan İlham Əliyev qardaş Türkiyənin sonuncu nəsil "Akıncı" hücum PUA-sına baxış keçirdi, ilk nümunənin üzərinə imza atdı, uçuş-enmə zolağında havaya qalxmasını izlədi.**

*Daha sonra idarəetmə məntəqəsinə gələrək Azərbaycan Hərbi Hava Qüvvələrində silahlanmaya yeni qəbul edilən "Akıncı"nın idarə olunmasını praktik şəkildə həyata keçirdi.*

**Bu həm də Müzəffər Ali Baş Komandanın düşmənə və onun havadarlarına mənalı mesajı idi!**

Azərbaycan dayanmadan öz ordusunu gücləndirir, ən yeni nəsil silahlar və PUA-lar alır və xam xəyallara düşənləri bir daha xəbərdar edir:

Çaşanlar öz qarşılarında "İki millət, bir dövlət və bir yumruğ"a çevrilən qardaş ölkələri görəcəklər!

❖ ❖ ❖

*Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşduqdan sonra Azərbaycan xalqı sevimli rəhbərinin vəsiyyətinə əməl edərək "dövlət gəmisi"nin sükanını yeni rəhbərinin güclü əllərinə etibar etdi!*

**İlham Əliyev bu "gəmi"ni məharətlə, məsuliyyətlə idarə etdi!**

**Gücləndirdi, sürətləndirdi, təhlükələrdən qorudu!**

*Ən əsası, xalqın müqəddəs arzusunu həyata keçirdi, otuz il işğalda qalan torpaqları "dəmir yumruğ"u ilə geri qaytardı, düşmənin başını əzdi!*

*İndi Azərbaycan adlı "dövlət gəmisi"nin üzdüyü məkan daha iyirmi faiz genişlənib!*

Həm də murdar xislətlilər tərəfindən xarabalıqlara çevrilən ərazilərdə görünməmiş sürətlə möhtəşəm quruculuq işləri gedir.

İnsanlar "məcburi köçkün" adından qurtularaq otuz il həsrətini çəkdikləri doğma el-obaya, yeni, "smart" tipli yaşayış məntəqələrindəki rahat və yaraşıqlı evlərə qayıdaraq sevinc və razılıqla məskunlaşırlar.

**Cari il fevral ayının 7-də işğaldan azad edilmiş ərazilərdə daha bir sevincli hadisə yaşandı:**

**Otuz ildən sonra Azərbaycanın bütün ərazisində prezident seçkiləri keçirildi!**

*Azərbaycan xalqı böyük fərəh və əminliklə, milli birlik şəraitində sevimli rəhbəri İlham Əliyevə səs verdi!*

**Deməli, daha yeddi il ərzində cənab İlham Əliyev Azərbaycan adlı "dövlət gəmi"sinin sükanı arxasında olacaqdır!**

Onun qüdrətli əlləri ilə bu "gəmi" xalqı daim bəxtəvər günlərə daşıyacaqdır!

Artıq "gəmi"nin əvəzolunmaz kapitanı yeni hədəfləri də dəqiqliklə müəyyən etmişdir.

Bu hədəflərin hər biri hər bir azərbaycanlının ürəyindəndir!

*Yolun açıq və aydın olsun, cənab kapitan!*

*Tanrı səni və idarə etdiyin "gəmi"ni pis gözlərdən və nəzərlərdən qorusun!*

**Bəxtiyar SADIQOV**


















# Yeni tarixi dövrün inkişaf hədəfləri



**Tarixinin ən qüdrətli Azərbaycanının ictimai-siyasi həyatında, daxili və xarici siyasətində tam yeni dövr başlayıb.**

**2003-cü ildən Ulu Öndər Heydər Əliyev yolunun uğurlu davamı ilə tarixi Zəfərinə, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına qovuşan Azərbaycan indi daha böyük hədəflərə doğru inamla addımlayır.**

**Bu bir həqiqətdir ki, müasir Azərbaycan indi dünya miqyasında güclü ölkələr sırasındadır. Qüdrətli dövlətimiz həm beynəlxalq aləmdə, həm regionda, həm də daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkə üçün nümunə sayılır, özünəməxsus inkişaf modelləri ilə tanınır.**

Son 20 ilin mənzərəsi göstərir ki, möhtərəm Prezident cənab İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyası əsasında gedilən yol düzgün yoldur. Bunu xalqın mütləq əksəriyyətinin fevralın 7-də bütöv Azərbaycanda ilk dəfə keçirilən prezident seçkilərində yenidən cənab İlham Əliyevə verdiyi etimad mandatı bir daha təsdiqlədi.

Bütün dövrlərdə siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə təşkil olunmuş andiçmə mərasimində qarşıdakı 7 ildə dövlətimizin bütün istiqamətlər üzrə prioritetlərinin dəqiq müəyyən olunduğu konseptual xarakterli yol xəritəsini təqdim edərək əsas hədəfləri göstərdi.

## Yeni hədəflər, vəzifələr, əsas prioritetlər

Hər bir seçki yeni dövrün başlanğıcı sayılır. Azərbaycan xalqı son 20 ildə inandığı, güvəndiyi, etibar etdiyi möhtərəm Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətin nəticələrini çox yaxşı görür və hər zaman onu düzgün qiymətləndirə bilir. Elə şanlı Zəfərimizi, qazandığımız bütün uğurları şərtləndirən əsas amil də məhz bu sarsılmaz birlikdir.

Daim xalqın firavan yaşaması, dövlətimizin nüfuzunun yüksəlməsi, Azərbaycanın daha da qüdrətlənməsi üçün yeni inkişaf hədəflərini müəyyənləşdirən cənab Prezidentimiz andiçmə mərasimində onları xalqa bir daha təqdim etdi.

Prezident bəyan etdi ki, Azərbaycan xalqının alnıaçıq, başı dik daxil olduğu yeni dövrün böyük nailiyyətləri olacaq. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilir.

Hazırda cəmiyyətdə hökm sürən çox müsbət ab-hava Azərbaycanı daha da gücləndirir. Güclü Azərbaycan isə hər zaman hədəfimiz olub. Cənab İlham Əliyevin söylədiyi kimi, əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdə qətiyyəti ilə bu gün Azərbaycan bayrağı ölkəmizin bütün ərazilərində dalğalanır. Xalqımızı mütəşəkkilləşdirən də məhz bu reallıqdır.

Qarşıda duran yeni vəzifələri müəyyənləşdirən dövlət başçımız dedi ki, ilk vəzifə Silahlı Qüvvələrimizin gücünə güc qatmaqdır. Düzdür, İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atılıb və bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür. Təkcə ötən ilin sentyabr ayında cəmi bir neçə saat davam edən antiterror tədbirləri bunun bariz nümunəsidir. Bu gün həmçinin Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı mühüm addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış Komando silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. 2024-cü ilin dövlət büdcəsində bu gün də ən böyük xərclərin hərbi xərclərin təşkil etməsi bunu təsdiqləyir.

Müzəffər Ali Baş Komandanımız bu gün elə bir ordu yaradıb ki, özünün də söylədiyi kimi, kimsə bizə sataşa və gələcəkdə də belə bir fikirdə ola bilməz. Ermənistanın nə qədər havadarları olsa da, hansısa qüvvə Azərbaycanı öz yolundan dayandıra bilməz. Çünki Azərbaycanın siyasəti beynəlxalq hüquqa əsaslanır. Azərbaycanla əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələr və onu yəqin ki, hər kəs görür. Aprelin 5-də keçiriləcək ABŞ-Aİ-Ermənistan görüşündə qəbul ediləcək hər hansısa qərar yalnız Hayastanın ziyanına ola bilər. Çünki bu ölkə hər zamankı kimi alət rolunu oynadığını bununla bir daha sübut edər.

Qarşıda duran vəzifələrdən biri sərhədlərimizin daha da güclü qorunmasıdır. Bunu da qarşıya önəmli vəzifə kimi qoyan dövlətimizin başçısı vurğuladı ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-İran sərhədinə qayıtdığımız, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşdiyimiz üçün sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır. Sərhədimiz elə güclü bağlı olmalıdır ki, onun üzərindən bir quş belə uça bilməsin. Prezidentin də söylədiyi kimi, sərhədlərimizin möhkəmliyi, keçilməzliyi, eyni zamanda bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır.

Məhz bu səbəbdən da möhtərəm Prezidentimiz təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsini vacib vəzifə kimi qarşıya qoydu. Çünki təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki, həm də ideoloji risklərdən özümüzü qorumalıyıq. Bunun səbəbi isə aydındır. Yeni dövrdə ideoloji risklər sərhəd tanımır. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Cənab İlham Əliyev bu məsələyə çox ciddi yanaşmanın vacibliyini vurğulayaraq əsas vəzifələrdən biri kimi qarşıya qoydu. Prezident qəti şəkildə bildirdi ki, gənc nəslin düzgün tərbiyə edilməsi gələcəyimizin təmini deməkdir. Elə bir gənc nəsil yetişdirilməlidir ki, onlar daim milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq qalsınlar. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın. Belə olan halda heç bir kənar qüvvə bizə qarşı hansısa bir məkrli plan həyata keçirə bilməz.

Dövlət başçısının bu fikirləri əlbəttə ki, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının üzərinə düşən sosial və ictimai missiyanı tamlıqla və dolğun şəkildə, yeni çağırışları adekvat səviyyədə həyata keçirə bilmək üçün səfərbər olmağa vadar etməlidir.

Prezident həmçinin azərbaycançılıq ideologiyasının daha da gücləndirilməsini, iqtisadiyyatımızın inkişaf etdirilməsini, türk dünyası ilə münasibətlərin daha da genişləndirilməsini vacib məsələlər hesab edərək vurğuladı ki, ən prioritet vəzifə isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Böyük qayıdış planına uyğun olaraq azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş məcburi köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlayıb. Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min insan öz dədə-baba torpaqlarına qayıdacaq.

## İqtisadi müstəqilliyin yaratdığı reallıq

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün ən prioritet məsələ iqtisadiyyatın dayanıqlı inkişafını təmin etməkdir.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının son illərdəki yüksəlişi ölkənin hərtərəfli tərəqqisini təmin edib. İqtisadi müstəqillik siyasi müstəqilliyimizi daha da möhkəmləndirib. 20 ilin uğurlu statistik göstəriciləri bunu bir daha təsdiqləyir.

Möhtəşəm uğurları şərtləndirən iqtisadi imkanlarımız Qarabağ və Şərqi Zəngəzuru heç kimdən yardım almadan yenidən qurmağa zəmin yaradıb. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması hər bir çətinliyin, problemlərin aradan qaldırılmasında da sözünü deyir.

Təkcə bu ilin yanvar ayının sosial-iqtisadi göstəriciləri Azərbaycanın dayanıqlı iqtisadi inkişafı barədə aydın təsəvvür yaradır. Belə ki, bu ilin yanvar ayında ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə ümumi daxili məhsulumuz 7 milyard dollar idisə, keçən ilin yekunlarına görə bu rəqəm 72 milyard dollardır. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 68,5 milyard dollardır. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini buna uyğun şəkildə aparır. Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə minimum əməkhaqqı 9 manat idisə, indi bu 345 manatdır. Minimum pensiya 2003-cü ildə 20 manat idisə, bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır.

Ümumiyyətlə, yola saldığımız 2023-cü il xalqımız və ölkəmiz üçün uğurlu il olub. Bunu Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun martın 15-də Milli Məclisdə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair təqdim etdiyi hesabat da bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə 2023-cü ildə də Azərbaycanda məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatların davam etdirildiyini, makroiqtisadi və maliyyə sabitliyinin təmin olunduğunu qeyd edən Baş nazir bildirdi ki, ötən il ölkəmiz üçün çox əlamətdar il kimi tarixə yazılıb. 2023-cü ili əhatə edən hesabat dövründə də Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatlar, həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin edilib.

Məhz cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir ki, ötən il ölkədə 123 milyard manatlıq və ya 2022-ci illə müqayisədə real ifadədə 1,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əhalinin hər nəfərinə düşən ÜDM isə 0,5 faiz artaraq 12,1 min manat (7,1 min ABŞ dolları) təşkil edib. ÜDM istehsalı 2022-ci illə müqayisədə neft-qaz sektorunda 1,7 faiz azaldığı halda, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,7 faiz artıb. Qeyri-neft-qaz sənayesi 8 faiz çoxalıb. Xarici ticarət dövriyyəmiz təxminən 45 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 10,3 milyard dollar olub. Qeyri-neft ixracı 9,8 faiz artaraq 3,3 milyard dolları üstələyib.

2023-cü ildə ölkənin strateji valyuta ehtiyatları 17 faiz və ya 10 milyard ABŞ dolları artaraq 68,5 milyard dollar təşkil edib və xarici dövlət borcunu 10 dəfədən çox üstələyib. Ötən il dövlət büdcəsinin gəlirləri təxminən 35,6 milyard manat olub ki, bu da 2022-ci illə müqayisədə 4,9 milyard manat çoxdur. Xərcləri isə 36,5 milyard manat və ya 99,5 faiz səviyyəsində icra olunub ki, bu da 2022-ci illə müqayisədə 4,4 milyard manat çoxdur. 2023-cü ildə əldə olunmuş müsbət makroiqtisadi göstəricilərdən biri olan inflyasiya xarici və daxili amillərin, o cümlədən həyata keçirilən anti-inflyasiya siyasətinin təsirindən azalıb. Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyinin idxal inflyasiyasına azaldıcı təsiri, qəbul edilmiş büdcə qaydasının parametrləri və monetar siyasət qərarları inflyasiya təzyiqlərini yumşaldıb.

2023-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 36 faizi və ya 13,1 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. Minimum əməkhaqları 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb. Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan 700 min nəfər işçinin əməkhaqqı orta hesabla 15 faiz artırılıb. Həmçinin minimum pensiya məbləği 16,7 faiz, orta pensiya məbləği 17,3 faiz, yaşa görə pensiya məbləği isə 16,5 faiz artıb. Yaşayış minimumu və ehtiyac meyarının həddi bərabərləşib və müvafiq olaraq 246 manat müəyyən edilib.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə 2023-cü ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə təqribən 5,9 milyard manat vəsait ayrılıb. Bu, 2022-ci illə müqayisədə 19,6 faiz çoxdur.

Səhiyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması məqsədilə əhalinin icbari tibbi sığortalanması üzrə dövlət büdcəsinin payına düşən vəsait 1 milyard 264 milyon manat təşkil edib.

Prioritet məsələlərdən biri də şəhid ailələri, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə dövlət tərəfindən göstərilən dəstək tədbirləridir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə postmüharibə dövründə şəhid ailələrinə, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə 6000 mənzil verilib, habelə müharibə əlillərinə 474 avtomobil təqdim edilib. Keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədlərinə 2023-cü ilin dövlət büdcəsindən 354 milyon manat vəsait yönəldilib. Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çərçivəsində hərbi qulluqçulara 473 ədəd tam təmirli mənzil alınıb.

2023-cü ildə təhsil sisteminin inkişafı üçün dövlət büdcəsində təhsil xərclərinə 4,4 milyard manat vəsait ayrılıb, 186 təhsil müəssisəsində əsaslı təmir və tikinti işləri aparılıb. Habelə ötən il Heydər Əliyev Fondu tərəfindən 17 ümumi təhsil müəssisəsi tikilib, 2-si əsaslı təmir olunub və 9-nun isə tikinti işləri davam etdirilir. Prezidentin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universiteti yaradılıb.

## Qarabağ və Şərqi Zəngəzurda quruculuq işləri

Ötən il qarşıda duran əsas vəzifələrdən biri də Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərinin davam etdirilməsi olub. Möhtərəm Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə ötən il də işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işləri aparılıb və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində işlər sürətlə davam etdirilib.

Baş nazir Əli Əsədov vurğulayıb ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 2022-2026-cı illərdə ümumilikdə təqribən 32 milyard manatdan çox vəsait tələb olunur. 2021-2023-cü illərin dövlət büdcəsindən bu məqsədlər üçün 12,1 milyard manat vəsait ayrılıb, o cümlədən 2023-cü ildə 5,6 milyard manat, 2024-cü ildə isə 4 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulur.

2023-cü ilin sonunadək işğaldan azad olunmuş ərazilərə ümumilikdə 1186 ailə (4691 nəfər keçmiş məcburi köçkün) köçürülüb. 2024-cü ilin sonunadək işğaldan azad olunmuş 25 yaşayış məntəqəsi üzrə ümumilikdə 5171 ailənin (20 min nəfərdən çox) köçürülməsi planlaşdırılır.

Bu gün Azərbaycan dövləti heç bir beynəlxalq maliyyə təşkilatından yardım almadan öz iqtisadi qüdrəti hesabına işğaldan azad edilmiş ərazilərdə bütün sosial infrastruktur obyektləri, yollar, tunellər və körpülər inşa edir. Elektrik təsərrüfatı yenidən qurulur, dəmir yolları çəkilir. 24 yaşayış məntəqəsində isə qaz xəttinin çəkilməsi həyata keçirilib. Azad edilmiş ərazilərdə 165 MVt gücündə 20 stansiya "Azərenerji" tərəfindən istismar edilməkdədir. İşğaldan azad olunan ərazilərdə "yaşıl enerji" potensialının yaradılması məqsədilə 122 MVt gücündə 17 ədəd su-elektrik stansiyası yenidən qurulub, tikilib və ya bərpa edilib, 73 MVt gücündə 9 ədəd SES-in tikintisi davam etdirilib.

Genişmiqyaslı layihələrin həyata keçirilməsi üçün işğaldan azad olunmuş ərazilərdə 2023-cü ildə Minatəmizləmə Agentliyi və minatəmizləmə əməliyyatlarına cəlb olunmuş dövlət və qeyri-dövlət qurumları tərəfindən ümumilikdə 53,1 min hektar ərazi minalardan təmizlənib. 2024-cü ildə isə 60 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

## "Yaşıl enerji" ixracı, Orta dəhlizə mühüm töhfə

Ötən il Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində və nəqliyyat dəhlizlərinin inkişafında rolu daha da güclənib. Azərbaycan qazı ilə təchiz edilən ölkələrin sayı 8-ə çatıb.

Mart ayının əvvəlində Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası Azərbaycanın uğurlu enerji strategiyasından xəbər verir. Bu bir daha sübuta yetirir ki, "Cənub qaz dəhlizi" bütövlükdə region üçün uğur hekayəsidir və gələcəkdə ixrac coğrafiyamız Avropa istiqaməti üzrə daha da artacaq. Məşvərət Şurasında səsləndirilən fikirlərə əsasən deyə bilərik ki, yeni dövrdə artıq yeni çağırışlar var. Azərbaycanda "yaşıl enerji"yə keçid müşahidə olunur. Ümumiyyətlə, regionda alternativ mənbələrdən enerji istehsalına ən çox sərmayə yönəldən ölkələrdən biri olaraq Azərbaycanın qısa zamanda "yaşıl enerji" hasilatını artırması və ixracını təşkil etməsi gözlənilənidir. Azərbaycanla Avropa İttifaqı arasındakı anlaşmaya əsasən, 2026-cı ildən sonra ölkəmizdə istehsal edilən "yaşıl enerji" Gürcüstan, eləcə də Qara dəniz vasitəsilə Avropaya çatdırılacaq. Bu isə ondan xəbər verir ki, Azərbaycan Avropaya yalnız ənənəvi enerji resursları məhsulları ilə deyil, həm də innovativ "yaşıl enerji"si ilə daxil ola biləcək.

Eyni zamanda ölkəmiz böyük bərpaolunan külək və günəş enerjisi potensialına malikdir. Prezident İlham Əliyevin uğurlu enerji siyasəti nəticəsində bu istiqamətdə mühüm işlər görülür. Ölkədə, habelə Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ" stansiyası istismara verilib.

2023-cü ildə Naxçıvanda 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlığa dair memorandum imzalanıb.

Azərbaycanın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin artırılması və tranzit potensialının reallaşdırılması üçün kompleks tədbirlər həyata keçirilməkdədir. Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar onu deməyə əsas verir ki, bu dəhlizin fəaliyyətə başlaması ilə Azərbaycan Orta dəhlizə çox mühüm töhfə vermiş olacaq.

## 2024-cü ildə qarşıda duran əsas vəzifələr və çağırışlar

Şanlı Zəfərimizdən sonra regionda yaranmış reallıqlar bütün planların yeni çağırışlar əsasında hazırlanmasını labüd edir.

Prezident İlham Əliyev hər zaman olduğu kimi, artıq 2024-cü il və ondan sonrakı dövrdə ölkənin əsas inkişaf istiqamətini və hədəflərini müəyyənləşdirəcək yol xəritəsini tərtib edib.

Baş nazir Əli Əsədov da Milli Məclisdəki çıxışının yekununda hökumətin 2024-cü il və gələcək illərdə qarşıda duran əsas vəzifələri və çağırışlarını açıqlayaraq bildirib ki, əsasən, müasir ordu quruculuğu prosesi, milli təhlükəsizlik potensialının artırılması, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi tədbirləri davam etdiriləcək.

Beləliklə, qarşıda duran hədəflərə gəlincə, ilk olaraq, 2026-cı ilədək 34500 ailənin (140 min nəfərin) doğma torpaqlarına qayıtması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur qeyri-neft iqtisadiyyatının inkişafında yeni drayverlərdən biri olacaq.

İqtisadi sahədə aparılacaq islahatlar çərçivəsində sağlam rəqabətə əsaslanan, şəffaf və sağlam biznesin inkişafı ilə bağlı zəruri addımlar atılacaq. Ölkədə pul və kapital bazarlarının inkişafının dəstəklənməsi, qiymətli kağızlar bazarında investisiyaların cəlbediciliyinin artırılması və ümumən investisiya aktivliyinin yüksəldilməsi, Azərbaycanın tranzit-logistika potensialının genişləndirilməsi istiqamətində zəruri işlər davam etdiriləcək. Büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi, Ortamüddətli Xərclər Çərçivəsinin əhatə dairəsinin genişləndirilməsi və nəticə əsaslı büdcə mexanizminə keçidlə bağlı islahatlar sürətləndiriləcək.

Möhtərəm Prezidentin hökumət qarşısında qoyduğu hədəflərdən biri də 2030-cu ilin sonunadək Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji istehsalına nail olmaqdır. Eləcə də ölkəmiz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji" ixrac edən vacib tərəfdaşlardan biri olmağı planlaşdırır. Məhz cənab Prezident tərəfindən aparılan məqsədyönlü və uğurlu "yaşıl enerji" siyasətinin nəticəsidir ki, COP29 beynəlxalq konfransı Bakıda keçiriləcək. Azərbaycandan dünyaya mühüm mesajlar veriləcək. Bütün bu vəzifələrə və hədəflərə nail olmaq üçün dayanıqlı və diversifikasiya olunmuş iqtisadiyyatın inkişafı təmin edilməlidir.

Bir sözlə, iqtisadi göstəricilər, mövcud potensial göstərir ki, son 20 ildə Azərbaycan kifayət qədər fərqli dövr keçib. Bu dövr Azərbaycan iqtisadiyyatının güclənməsi, qeyri-neft sektoru üçün imkanların genişlənməsi, eyni zamanda ölkəmizin Cənubi Qafqazda aparıcı iqtisadi gücə çevrilməsi anlamına gəlir. Bütün bunlar Azərbaycanda yeni hədəflərin formalaşmasına gətirib çıxarıb, son 20 il isə dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilmiş hədəflərə nail olunmasına imkan yaradıb. Həm iqtisadi, həm siyasi, həm də ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası mümkün olub.

Yeni dövrümüzün hədəfləri Azərbaycan iqtisadiyyatı üçün vacib imkanlar deməkdir. Yeni hədəflər kontekstində Azərbaycan iqtisadiyyatında islahatların dərinləşməsi, o cümlədən bu sahədə addımların atılması, rəqabətin gücləndirilməsi kimi strateji tədbirləri müşahidə edəcəyik. Bu isə Azərbaycanda yeni dövr, yeni iqtisadi inkişaf deməkdir.

Bu fakt inkaredilməzdir ki, Prezident İlham Əliyev 2003-cü ildən məlum hədəfləri qarşıya qoyub - iqtisadi tərəqqi yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında da öz əksini tapmalıdır. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi dövlətimizin siyasətinin əsas amilləridir.

Müasir inkişafın Azərbaycan modelini yaratmış Prezident İlham Əliyevin yenilməz siyasi iradəsi, müdrik rəhbərliyi ilə ölkəmiz bundan sonra da inamla, uğurla inkişaf edəcək və qarşıya çıxan bütün çağırışların, vəzifələrin öhdəsindən layiqincə gələcək.

*Sonda onu da vurğulamaq yerinə düşər ki, bu gün Zəfər yolumuzun başlanğıcı hesab edilən Aprel döyüşlərindən 8 il ötür. Azərbaycan xalqının döyüş əzminin güclənməsində, düşmənə qarşı mübarizədə həmrəylik nümayiş etdirməsində mühüm rol oynayan tarixi hadisələrdən biri də 2016-cı ilin şanlı Aprel döyüşləridir. Aprel döyüşlərinin əhəmiyyəti çox böyükdür. Məhz bu döyüşlərdən sonra Ali Baş Komandanın rəhbərliyi ilə şəhadəti şərəf sayan Azərbaycan xalqının və rəşadətli ordumuzun vəhdəti nəticəsində 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi və Müzəffər Ali Baş Komandanımızın Xankəndidə dalğalandırdığı bayrağın kölgəsi bütöv Azərbaycanın üzərinə düşür.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Gələcək nəslə "xəstə" ekologiya ötürmək olmaz

## COP29 məhz bu problemi çözəcək

Hazırda "yaşıl enerji"nin inkişafı və dünya bazarına çıxışı Azərbaycanın enerji siyasətinin əsas prioritetidir.

Bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyinə yeni yanaşmalar ortaya qoyacaq, maraqlı tərəflər arasında əməkdaşlığa imkan və şərait yaradacaq. Dünya Azərbaycanın gündəliyinin "yaşıl enerji" olduğunu görəcək.




Bu gün Azərbaycan COP29-la bağlı üzərinə düşən vəzifəni ən yüksək səviyyədə yerinə yetirir, hazırlıq işləri layiqincə görülür. Bunun üçün ilk gündən Təşkilat Komitəsi yaradılıb, əlaqədar qurumlar səfərbər edilib. Müntəzəm olaraq Avropa, Asiya, ABŞ-dən Bakıya səfərlər edilir, eləcə də Azərbaycanın əlaqədar şəxsləri xaricə gedib görüşlər keçirirlər. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu günlərdə Çin səfərini bu qəbildən saymaq olar. O, səfər çərçivəsində yerli "Phoenix" televiziya kanalına verdiyi müsahibəsində COP29-a da toxunub, ötən konfransda irəliləyiş əldə olunmayan iqlimin maliyyələşdirilməsi məsələsinin Bakı konfransında əsas mövzuya çevriləcəyini vurğulayıb. Hikmət Havcıyev deyib: "Yaşıl enerji"yə keçid bizim prioritetlərimizdən biridir. Biz COP29 və ondan sonrakı mərhələdə çinli dostlarımızla fəal işləməyi səbirsizliklə gözləyirik". COP29-un Azərbaycanın qazıntı yanacağına sahib olan ölkə kimi qətiyyətini, eyni zamanda diplomatik və siyasi cəsarətini nümayiş etdirdiyini söyləyən Prezidentin köməkçisi qeyd edib: "Bu, həmçinin bizim güclü və qəti iradəmizi göstərir. Azərbaycan göstərdi ki, biz qərarlıyıq, karbohidrogen ehtiyatları ilə yanaşı, həm də "yaşıl enerji"nin tərəfdarı olmaq istəyirik və bu konsepsiyaya töhfə verməyə hazırıq".

Bəs, görəsən COP29 niyə bu qədər vacibdir? Bəşər yaranandan dünya çoxlu sayda təbii və süni fəlakətlərlə üz-üzə gəlir. Amma bunun ən dəhşətlisi insanın öz əli ilə yaratdığı fəlakətlərdir ki, bu da iqlim dəyişikliyini qaçılmaz edir. Bu fəlakət canlı aləmin məhv olmasına yol açır. Faciələrin qarşısını almaq bəşəriyyətin bir nömrəli borcudur, özünün yaratdığı fəlakətdə boğulmamaq üçün təcili tədbirlər görməlidir. Qütb buzlaqlarının əriməsi nəticəsində orda yaşayan suitilər, pinqvinlər, qütb ayıları və canavarları yerlərini dəyişməyə məcburdurlar. Buzlaqların tamamən yox olması həmin canlı aləmin yoxa çıxmasına səbəb ola bilər. Üstəlik də dəniz səviyyəsi qalxa bilər ki, bu da sahil bölgələrdə yaşayan milyonlarla insanı fəlakətlə üz-üzə qoyar. Eləcə də dənizlərə tökülən tullantı və çirkli sular bir çox dəniz canlılarının həyatı üçün böyük təhlükə yaradır. Mərcanlar, dəniz tısbağası, balina və delfin kimi canlılar iqlim dəyişikliyinin təsirləri səbəbindən daimi yaşayış yerlərini itirirlər.

Meşə yanğınları, quraqlıq və digər bənzər fəlakətlər iqlim dəyişikliyinin fəsadlarına yol açır. Nəticədə meşələrdəki canlı aləm məhv olur, nəsli yoxa çıxır. Hələ onu demirik ki, saysız-hesabsız bitki növlərinin kökü kəsilərək ətraf mühitin oksigensiz qalmasına səbəb olur, təbiətin "yaşıl ciyər"i nəfəssiz qalır. Bir sözlə, iqlim dəyişikliyi bütün dünyada insanları, flora və faunanı təhdid edir. Bu gün bu fəlakətlərlə "müharibə"yə qalxıb onun aradan götürülməsinə nail olunmasa, sabahkı nəsil xəstə bir dünyanın xəstə sakini olacaq. Onlara sağlam yaşamaları üçün daha gözəl, daha normal dünya buraxmaq şansını əldən vermək olmaz.

Bütün bu sadalananların aradan qaldırılması, planetin ölü məzarlığna çevrilməməsi üçün COP29 vacibdir, faydalıdır, gərəklidir. Bakının COP29-a evsahibliyi etmək öhdəliyi Azərbaycanın qlobal nüfuzunun artmasını sürətləndirir. Bu, həm də o deməkdir ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə sadiqdir, əlindən gələni etməyə hazırdır, təkcə ənənəvi enerji resursları ilə deyil, həm də artan "yaşıl texnologiya"lar sahəsində regional liderdir. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi də Azərbaycanın qlobal səviyyədə strateji addımıdır.

COP29 müasir texnologiyalardan maksimum istifadəyə yol açaraq, Azərbaycanda bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı kimi sahələrdə innovasiyaların tətbiqi prosesini dəstəkləyə bilər. Bu tədbir Azərbaycana "yaşıl infrastruktur" layihələrini və turizm imkanlarını nümayiş etdirmək şansı verəcək və regional əməkdaşlığı gücləndirəcək. Ekoloqların fikrincə, COP29 tədbirləri "yaşıl enerji" ilə bağlı sazişlərə əhəmiyyətli dərəcədə iqtisadi imkanlar açacaq, bazara çıxış üçün şərait yaradacaq. Üstəlik "yaşıl enerji" təşəbbüsünün COP29-la kəsişməsi Azərbaycanın öz iqtisadi mövqeyini gücləndirməsi üçün bir fürsət olacaq.

Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov COP29-un iqtisadi imkanlarından söz açaraq deyib: "Əvvəla, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha təsdiq edir ki, ölkəmizin bu sahədəki fəaliyyəti BMT daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Məhz bu səbəbdən də Azərbaycanın namizədliyi dəstəklənib və təsdiqlənib. Nəzərə çatdırım ki, Azərbaycan regionda "yaşıl enerji"nin inkişafına ən çox investisiya qoyan ölkələrdən biridir. Son illər bu sahəyə yönəlmiş sərmayələrin həcmi 1 milyard dollardan artıqdır. COP29 bir sıra istiqamətlərdə - Azərbaycanın iqtisadiyyatı, eyni zamanda "yaşıl enerji" sahəsində həyata keçirdiyi fəaliyyətlərin təqdimatı baxımından da çox vacibdir". Vuqar Bayramov onu da qeyd edib ki, eyni zamanda Azərbaycan, həm də Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya öz "yaşıl enerji"sini ixrac etmək niyyətindədir. Bu da ondan xəbər verir ki, 2026-cı ildən sonra Azərbaycan Avropa İttifaqının "yaşıl enerji"yə olan tələbinin ödənməsində xüsusi paya malik olacaq. COP29 Azərbaycanın potensialının və iqtisadi imkanlarının daha yaxından təqdim edilməsinə şərait yaradacaq ki, bu da çox vacib amillərdəndir. Çünki belə tədbirlər bir tərəfdən turizm-xidmət sektorunun dəstləklənməsi və inkişafına xidmət edir, digər tərəfdən isə ölkənin iqtisadi potensialı ilə daha yaxından tanış olmağa fürsət yaradır.

Bütün bunlar onu deməyə əsas verir ki, COP29 iqlim dəyişikliyinin fəsadları nəticəsində yaranan fəlakətlərdən dolayı planetin başı üzərində dolaşan kabusun məhvində mühüm rol oynayacaq ki, bu da qlobal tədbirin nə qədər vacib olduğunu sübut edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xocalıda kütləvi məzarlıqda tapılan daha bir nəfərin şəxsiyyəti müəyyənləşib: *qalıqlar Xankəndi sakininə məxsusdur*

Xocalıda kütləvi məzarlıqda tapılan daha bir nəfərin şəxsiyyəti müəyyənləşib. AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.



Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində aşkar edilmiş insan qalıqlarının müayinəsi zamanı onların 18 nəfər şəxsə məxsus olması (4 nəfərin azyaşlı olması ehtimal edilir), müxtəlif üsullarla işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalmaları, fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları, həmişə tapıla bilmələri üçün lazımi qaydada qorunmaları və nişanlanmalarının təmin olunmaması müəyyən edilib.

Həmçinin aşkar edilmiş insan qalıqları xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırılıb.

Baş Prokurorluq tərəfindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, həmçinin iş üzrə əhəmiyyət kəsb edən digər halların müəyyən edilməsi məqsədilə ekspertiza və laborator müayinələr aparılır, eləcə də digər zəruri prosessual hərəkətlər həyata keçirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsi tərəfindən keçirilən məhkəmə-genetik ekspertizasının hazırkı mərhələsində Xankəndi sakini olmuş daha 1 nəfərin şəxsiyyəti müəyyən edilib. Bununla da, kütləvi məzarlıqda aşkar olunan insan qalıqlarından 10 nəfərin şəxsiyyəti müəyyən edilib:

(Xocalı rayon sakinləri)
1. Əliyev Ağaəli Naib oğlu (01.06.1933)
2. Əliyeva Sürəyya Behbud qızı (01.06.1933)
3. Mahmudov Akif Seydulla oğlu (01.06.1962)
4. Səlimov Xəzər Səyavuş oğlu (01.09.1974)
5. Səlimova Tamilla Ağamirzə qızı (01.06.1935)
6. Nəcəfov Şiraslan Məmiş oğlu (01.06.1952)

(Xankəndi şəhər sakinləri)
7. Cavadov Əli Müsül oğlu (15.06.1954)
8. İsmayılov İsmayıl Bəhman oğlu (01.08.1955)
9. Məhərrəmova Bəsirə Vəli qızı (01.06.1954)
*10. Məhərrəmov Vaqif Cəmil oğlu (01.06.1951)

İstintaq materiallarına əsasən qeyd edilən şəxslərin hamısı 26.02.1992-ci il tarixdə Xocalı rayonu ərazisində itkin düşüb.

Toplanmış materiallar Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaqı aparılan cinayət işinə əlavə edilərək araşdırılır, nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

# Antiterror tədbirlərinin ilkin mərhələsində Ermənistana məxsus 200-dən çox optik-elektron və müşahidə kameraları sıradan çıxarılıb

Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirlərinin ilkin mərhələsində Ermənistan silahlı qüvvələrinin səngər, atəş mövqeyi və dayaq məntəqələrində, eləcə də daimi dislokasiya yerlərində əvvəlcədən yerləri müəyyənləşdirilmiş izləmə-müşahidə vasitələri legitim hərbi hədəf olaraq sıradan çıxarılıb.















Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən çox optik-elektron və müşahidə kameraları bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək, onlara qarşı müxtəlif xarakterli təxribat fəaliyyətləri həyata keçirmək məqsədilə kustar üsulla hazırlanaraq 480 kilometrədək təmas xətti boyunca 10-15 və 20-30 metr hündürlükdə quraşdırılıb.

Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

# "Azərbaycanda psixi sağlamlıq və psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqları" mövzusunda "dəyirmi masa" keçirilib

Aprelin 1-də Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə "Azərbaycanda psixi sağlamlıq və psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqları" mövzusuna həsr edilmiş "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən ombudsman Səbinə Əliyeva əhalinin sağlamlığının qorunması hüququnun müdafiəsi sahəsində fəaliyyət barədə ətraflı məlumat verib, bu istiqamətdə problemlərin araşdırılması və həlli üçün müvafiq tədbirlərin görüldüyünü bildirib.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində psixiatriya müəssisələrində həyata keçirilən monitorinqlərdən danışan müvəkkil bu cür monitorinqlərin mövcud problemlərlə əyani şəkildə tanış olmaq və preventiv tədbirlər görmək baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. S.Əliyeva bəzi psixiatriya xəstəxanalarında, xüsusilə regionlardakı müəssisələrdə olan bir sıra nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyələrlə aidiyyəti qurumlara müraciət edildiyini deyib.

İkinci Qarabağ müharibəsinin iştirakçılarının postmüharibə dövründə psixiatrik yardımla təminatının önəmindən danışan ombudsman bu məsələnin diqqət mərkəzində olduğunu, təsisatın təşəbbüsü ilə bir qrup müharibə iştirakçısına müvafiq yardımın göstərildiyini vurğulayıb.



Psixi sağlamlığın qorunması istiqamətində ölkəmizdə davamlı tədbirlərin həyata keçirildiyini bildirən S.Əliyeva vətəndaşların hüquqlarının qorunması baxımından müvafiq dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin, proqram və layihələrin ombudsman təsisatı tərəfindən izlənildiyini və təhlil olunduğunu qeyd edib. Müvəkkil psixi sağlamlıq məsələlərinə cavabdeh qurumlar arasında bu sahədə koordinasiyalı əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev respublikada psixiatrik xidmətin yaxşılaşdırılması məqsədilə görülən tədbirlərdən danışıb. T.Musayev tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılması istiqamətində məqsədyönlü addımların atıldığını, Psixi sağlamlıq üzrə Milli Strategiyanın hazırlanmasının gələcəyə yönəlik planlardan biri olduğunu söyləyib. Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov son vaxtlarda psixoloji yardım həyata keçirilən özəl müəssisələrdə çalışan şəxslərin əksəriyyətinin bu sahə üzrə təhsilinin olmadığını bildirib, bu sahəyə ciddi nəzarətin artırılmasının əhəmiyyətini vurğulayıb. Ə.Əmiraslanov, həmçinin ölkəmizdə həkimlərin və pasiyentlərin hüquqlarını qoruyacaq yeni qanun layihəsinin hazırlandığını da diqqətə çatdırıb.

Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova çıxışında müasir dövrdə uşaqların virtual məkanda daha çox vaxt keçirmələrinin onların psixologiyasına ciddi təsir göstərdiyini qeyd edib. Komitə sədri əhali arasında sağlam həyat tərzinin təbliğinin, eyni zamanda valideyn məsuliyyətinin artırılması ilə bağlı işin aparılmasının vacibliyini diqqətə çatdırıb.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı psixi xidmətlərə əlçatanlığın təmininin ölkəmiz üçün ən əhəmiyyətli məsələlərdən biri olduğunu, psixi sağlamlıq mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli dövlət tibb müəssisələrində çalışan psixiatrların sayı ilə bağlı mövcud problemlərdən, kadr çatışmazlığından danışıb. O, həmçinin son dövrlər gənclər arasında aqressiya, depressiya hallarının artdığını və bu halların aradan qaldırılması istiqamətində zəruri addımların atılmasının vacibliyini vurğulayıb.

Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi vəzifəsini icra edən Rafael Mehtiyev isə çıxışında hazırda ümumilikdə cəzaçəkmə müəssisələrində işləyən 30 həkim psixoloq-narkoloqun olduğunu diqqətə çatdırıb. O, bu rəqəmin kifayət qədər az olduğunu, eyni zamanda cəzaçəkmə müəssisələrindən mövcud kadrların işdən getdiyini qeyd edib. O, son illərdə 88 tibb işçisinin işdən çıxdığını vurğulayaraq, bunların gələcəkdə penitensiar müəssisələrdə işləmək üçün xüsusi hazırlanan şəxslər olduğunu nəzərə çatdırıb.

Digər çıxış edənlər tibbi xidmətə əlçatanlığın yüksəldilməsi üzrə işlərin görülməsi, həmçinin ölkədə psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində təklif və tövsiyələrini veriblər.

"Dəyirmi masa" mövzu üzrə müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Üçtərəfli görüş Ermənistana yaxşı heç nə vəd etmir

### İmzalanacaq hansısa sənəd real dəstəyi şərtləndirməyəcək

"Ermənistan rəhbərliyi açıq şəkildə Qərblə yaxınlaşmaq kursunu seçib və Rusiya ilə olan təhlükəsizlik sistemindən demək olar ki, uzaqlaşıb. Paşinyan hakimiyyətə gəlməmişdən öncə də bildirirdi ki, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və Avrasiya İqtisadi İttifaqında işi yoxdur".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat xatırladıb ki, Paşinyanın əvvəl rəhbərlik etdiyi hərəkatın şüarı da bu idi. Məhz bu şüar vasitəsilə də Qərbdən dəstək aldı və onu hakimiyyətə gətirdilər. Ermənistan bu gün Qərbin Cənubi Qafqaz regionunda bir platformasıdır və Avropa bunun üzərindən əsas geosiyasi rəqibi olan Rusiyaya qarşı mübarizə aparır. Birinci məsələ Ermənistanla Rusiya arasında bütün bağları qırmaqdan ibarətdir. Paşinyan hakimiyyətə gələn kimi KTMT baş katibi Xaçaturova qarşı cinayət işi başlatdı, bununla təşkilatın həm işini müəyyən müddətə iflic etdi, həm də qurumun imicinə zərbə vurdu. Sonra isə ermənilər bəyan etdilər ki, Ermənistan KTMT-dəki fəaliyyətini dondurub. Avrasiya İqtisadi İttifaqı Ermənistana yaxşı dividendlər gətirdiyindən və Qərb bunun alternativini təklif edə bilmədiyinə görə hələlik bu təşkilatda mövcudluğunu davam etdirir.

Deputat vurğulayıb ki, Ermənistan NATO ilə təhlükəsizlik məsələsini həll etməyə çalışır: "Təbii ki, Ermənistan təhlükəsizlik məsələləri ilə bağlı yanlış təsəvvürlərə malikdir. Ermənistanın təhlükəsizliyi haqqında nə NATO, nə Avropa İttifaqı ciddi təkliflər verə bilər. Sadəcə olaraq bu ölkəni yanlış təsəvvürlər formalaşdırmaq üçün müxtəlif platformalara cəlb edirlər, ona hərbi yardımlar göstərirlər. Bu hərbi yardım Ermənistanın kiməsə qarşı çıxmasına imkan verməyəcək. Çünki Ermənistan ordusu 2020-ci ildə darmadağın edilib və Qərbin qısa zamanda bu ordunu bərpa etmək imkanı yoxdur".

E.Mirbəşiroğlu bildirib ki, bütün bunlar Ermənistanı Paşinyan administrasiyasının inzibati rıçaqları, siyasi bəyanatları ilə Rusiyaya qarşı qoymaqdan ibarətdir, yəni Ermənistan Qərbin əlində özünün alət rolunu təsdiq edib. Əvəzində isə Hayastan Azərbaycana qarşı Qərbdən dəstək gözləyir. Qərb də bu dəstəyi verməyə hazır olduğunu hələlik nümayiş etdirir.

Avropanın Ermənistanda möhkəmlənmək istiqamətində addımlar atdığını deyən deputat Aİ-nin mülki missiyasının göndərilməsinin bu yöndə atılan ilk addım olduğunu qeyd edib. Aprelin 5-də keçirilməsi nəzərdə tutulan üçtərəfli görüş çərçivəsində Ermənistana təhlükəsizlik təminatını ifadə edən sənədlərin imzalanması nəzərdə tutulur. Bu sənədlərin imzalanması heç də real dəstəyi şərtləndirməyəcək. Ona görə ki, Qərbin hazırda buna gücü çatmayacaq, çünki Ukraynada da fəaliyyətini davam etdirir. "Qərb hələlik Ermənistanda da Rusiyaya qarşı ikinci cəbhənin ilkin elementlərini yaratmağa çalışır. Avropada planlaşdırılan görüş də əsasən buna hesablanıb. Görüş öncəsi Ermənistan hərbçilərinin şərti sərhəd boyunca aktivliyi artıb. Bu da Azərbaycanı təxribata çəkməyə hesablanıb. Həmişə görmüşük ki, Ermənistan görüşlərdən əvvəl Azərbaycana qarşı təxribatlar törədib ki, cavab reaksiyasına nail olsun, bununla da Avropadan daha çox dəstək alsın. İndiki halda Ermənistanın təxribatlarının arxasında Avropa durur. Çünki Qərb ictimai rəydə Ermənistana gələcək dəstəyini əsaslandırmaq üçün arqumentlər yaratmağa çalışır", - deyə deputat əlavə edib.

Müsahibim qeyd edib ki, Ermənistanın təxribatları gözləniləndir, amma bütün hallarda bu təxribatların qarşısı qətiyyətlə alınacaq. Zərbə yenə Ermənistana dəyəcək. Qərb Hayastan üzərindən də geosiyasi eksperiment həyata keçirmək istəyir. Ermənistan Rusiyaya qarşı cəbhə açacağı halda əsas zərər görən tərəf, yenə də özü olacaq. Bu eksperimentləri müxtəlif coğrafiyalarda görmüşük, xalqların taleyi Qərb üçün maraqlı olmur. Bunu Avropa İttifaqının Xarici məsələlər üzrə xüsusi nümayəndəsi Cozef Borel açıq şəkildə ifadə edib. Qeyd edib ki, Aİ Ukraynaya onun üçün deyil, Avropanın və ABŞ-nin maraqlarına cavab verdiyi üçün dəstək göstərir. Eynilə Ermənistanın təhlükəsizliyi, gələcək rifahı üçün deyil, Qərbə lazım olduğu üçün dəstək göstərəcəklər. Bunun müqabilində Ermənistan hansısa addımları atmağa məcbur olacaq. Bu da ona baha başa gələcək.

Ermənistan rəhbərliyi də bildirir ki Aİ-yə üzvlük onlar üçün vacibdir və bu istiqamətdə getmək istəyirlər. Rusiya rəsmiləri, xüsusilə xarici işlər naziri bununla bağlı açıq narahatlığını ifadə edib.

Deputat vurğulayıb ki, Rusiyanın XİN rəhbəri Sergey Lavrovun səsləndirdiyi fikirlər Ermənistana həm də çağırış idi. Ümumiyyətlə, gedən proseslər Ermənistan üçün yaxşı heç nə vəd etmir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Azərbaycan son şans verir

### Vəziyyətin gərginləşməsinə və hər hansı baş verəcək təxribata görə məsuliyyət İrəvanın və onun havadarlarının üzərinə düşəcək



Ermənistanın baş naziri, ABŞ Dövlət katibi və Avropa Komissiyasının prezidenti arasında aprelin 5-də keçirilməsi nəzərdə tutulan konfrans ərəfəsində Ermənistanda Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin daha da fəallaşması müşahidə edilir. Belə ki, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə KİV-də və sosial şəbəkələrin erməni seqmentində vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artması özünü büruzə verir.

### Qərb Ermənistanı revanşizmə sövq edir

Bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsinin, zirehli texnikasının, artilleriya qurğularının, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkətinin müşahidə edilməsi haqlı olaraq suallar yaradır. Məsələ ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi xəbərdarlıq edərək bildirib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq. Bu barədə məlumatda bəyan edilib ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistanın və onun havadarlarının üzərinə düşəcək.

Aprelin 5-nə planlaşdırılan ABŞ-Aİ-Ermənistan konfransından ruhlanan ermənilərin hansısa hoqqalardan çıxmaları, sülh danışıqları və münasibətlərin normallaşdırılması prosesinə zərbə vurmaq istəmələri gözləniləndir. Çünki bu gün Qərbin adıçəkilən siyasi dairələrinin Cənubi Qafqazla bağlı mövqeləri və planları Ermənistanı sülhə yox, revanşizmə sövq edir. Başqa cür desək, Qərb dairələri məqsədyönlü şəkildə İrəvanı sülh prosesini pozmağa həvəsləndirirlər. Və bundan cəsarətlənən Ermənistan hərbi-siyasi rəhbərliyi sadəlövhcəsinə nəsə əldə edəcəyinə inanır.

Əlbəttə, buna bənzər hadisələr əvvəllər də çox olub. Hələ Vətən müharibəsinə qədər Ermənistan məlum siyasi dairələrə arxalanaraq Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamışdı. Haqq-ədalət Azərbaycanın tərəfində olsa da, məhz Qərb siyasi dairələrinin dəstəyi ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini tapdalayır və hətta ölkəmizi yeni müharibə və işğalla təhdid edirdi.

Lakin 44 günlük müharibə göstərdi ki, Ermənistanın cəzasını vermək və torpaqlarını azad etmək Azərbaycan üçün çətin məsələ deyil. Eyni zamanda həm 44 günlük müharibə, həm antiterror tədbirləri təsdiqlədi ki, heç kim gəlib Ermənistanın yerinə döyüşməyəcək. Digər tərəfdən, həm Aprel döyüşləri, həm Tovuz döyüşləri, həm Vətən müharibəsi, həm də antiterror tədbirləri göstərdi ki, Ermənistanın və separatçıların bütün təxribatları özlərinə baha başa gəlib. Bu baxımdan, Ermənistanın indi hansısa təxribatının ilk növbədə öz başında çatlayacağını söyləmək çətin deyil. Baş verənlər həm də göstərir ki, Ermənistan "dəmir yumruq" üçün darıxıb.

### ABŞ-Aİ-Ermənistan konfransı xoşməramlı ola bilməz

Ermənistan və Qərb siyasi dairələri planlaşdırdıqları 5 aprel konfransını tamamilə başqa cür şərh edirlər, bu tədbirin guya regionda sülhə xidmət göstərəcəyini bildirirlər. Lakin aydındır ki, birtərəfli şəkildə heç bir problem həll olunmur və ya sülh əldə edilmir. Bu baxımdan, ABŞ-Aİ-Ermənistan konfransı heç bir halda xoşməramlı ola bilməz.

Digər tərəfdən sual olunur ki, niyə Azərbaycan torpaqlarının işğal altında olduğu 30 ilə yaxın bir dövrdə ABŞ və Avropa İttifaqının təşkilatçılığı ilə belə bir konfrans keçirilməyib. 30 ilə yaxın dövr az müddət deyil və bu dövrdə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı bir tədbir təşkil etmək olardı.

44 günlük müharibədən sonra bütün dünya erməni vəhşiliyinə, Azərbaycan ərazilərinin vandalcasına dağıdılmasına şahidlik etdi. İndi bu torpaqları Azərbaycan dövləti öz imkanları hesabına bərpa edir. Nədən Avropa İttifaqı və ABŞ bu prosesdə öz töhfələrini vermək istəmirlər.

Yaxud ərazilərimizin minalanmasının fonunda dünya Ermənistanın terrorçu xislətini gördü. Müharibədən sonra yüzlərlə Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanı oldu. Amma ABŞ və Avropa İttifaqı susur və üstəlik, minatəmizləmə prosesində də Azərbaycana kömək etməkdən uzaqdır.

Bütün bunların fonunda ABŞ və Avropa İttifaqının Ermənistanla bağlı konfrans keçirməsi riyakarlıqdan, ikiüzlülükdən, bu ölkəni işğala həvəsləndirməkdən başqa bir şey deyil.

### Əzilən erməni dövləti və xalqı olacaq

Əslində, nə Avropanı, nə də ABŞ-ni Ermənistan maraqlandırmır. Bu ölkə sadəcə olaraq Qərbin əlində Kremlə qarşı istifadə etmək, Rusiyanı Cənubi Qafqazdan çıxarmaq və ya ona qarşı ikinci cəbhə üçün vasitədir. ABŞ və Avropa İttifaqının Ermənistanla imzalamağı planlaşdırdığı təhlükəsizlik zəmanətinə dair sənədin də məqsədi məhz budur. Qərb belə bir sənədin imzalanmasına nail olmaqla Ermənistanı özünün anti-Rusiya avantürasına daha dərindən cəlb etmək niyyəti güdür. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı üzvlüyünü dayandırması da göstərir ki, İrəvan Qərbin Rusiya ilə bağlı planlarına aktiv şəkildə qoşulub. Bütün bunlar, o cümlədən Ermənistandakı Avropa İttifaqı missiyasının tərkibi artıq Rusiyada da ciddi narahatlıqla qarşılanır. "İndi, üstəlik, Norveç, Kanada və ABŞ-dən olan hərbçilər oraya göndərilir və Avropa İttifaqının missiyası getdikcə Şimali Atlantika Alyansının missiyasına çevrilir", - deyə Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova öz teleqram kanalında yazıb ki, bu görüşlər Azərbaycanla Ermənistan arasında sülhün nail olunmasına deyil, Cənubi Qafqazda yeni bölücü xətlərin yaradılmasına, region ölkələrinin anti-Rusiya gündəliyinə riayət edilməsinə məcbur etməyə, onların Moskva ilə olan çoxəsrlik əlaqələrinin məhv edilməsinə, mövcud regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq mexanizmlərinin sarsıdılmasına yönəlib. "Rəsmi İrəvanın söhbətin nədən getdiyini anlamaması kimi davranması böyük sual doğurur. Axı Ermənistanı bütün dünyanın gözü qarşısında kollektiv Qərbin həddindən artıq təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevirirlər", - deyə o bildirib.

Görünən odur ki, əzilən erməni dövləti və xalqı olacaq. Çünki xəstə təfəkkür və saxta iddialar, üstəlik, asanlıqla xəyanət etməyi bacarmaları bu xalqa yaxşı heç nə gətirə bilməz.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Qərb Ermənistanı məhvə sürükləyir

"Qərb öz mənfəəti naminə Cənubi Qafqaz xalqlarının faciəsinə səbəb olacaq addımlar atır. Aprelin 5-də Brüsseldə keçirilməsi nəzərdə tutulan ABŞ-Aİ-Ermənistan müştərək konfransı da regionda yeni münaqişə ocağı yaratmaq məqsədinə xidmət edir. Konfrans çərçivəsində hərbi paktın yaradılması planı da Qərbin qərəzli mövqeyini bir daha sübuta yetirir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Azərbaycanla olan sərhəddə yerləşdirilən Aİ missiyasının əsl məqsədi hələ də məlum deyil: "Görəsən, Avropa İttifaqı bu sərhədlərin təhlükəsizliyindən əvvəllər niyə narahat olmurdu?! Bu missiyaçılığın özü birbaşa ikili standartlardan xəbər verir. Əks halda, Azərbaycanın sərhədkənarı əhalisi 30 il müddətində erməni terrorundan əziyyət çəkəndə də Aİ-nin missiyaçılıq mövqeyinin şahidi olardıq. Açıq-aydın ortadadır ki, Aİ və ABŞ-nin timsalında Qərb riyakarlığına, insan haqlarına hörmətsizliyə davam edir".

Deputat qeyd edib ki, hazırda regionda vəziyyət dəyişib, Aİ ölkələri Cənubi Qafqazda kommunikasiyalardan və tranzit əlaqələrindən məhrum olmaq qorxusuna düşüb Ermənistanı ələ almağa çalışırlar: "Aprelin 5-də Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen və ABŞ-nin Dövlət katibi Entoni Blinkenin iştirakı ilə Brüsseldə keçirilməsi planlaşdırılan birgə konfrans Cənubi Qafqazdakı mövcud siyasi tarazlığa ciddi şəkildə mənfi təsir göstərə bilər. Ona görə də ABŞ-nin və sözügedən təsisata üzv olan bir sıra ölkələrin Ermənistana hərbi yardım planları və keçiriləcək toplantının hərbi komponentləri ciddi narahatlıq doğurur. Konfransda hərbi paktın imzalanması regionda sülh quruculuğu səylərinə ciddi xələl gətirər".

Müşfiq Cəfərov vurğulayıb ki, Qərb Azərbaycanın yaratmağa çalışdığı inteqrasiya olunmuş, əməkdaşlıq mühitinin formalaşdığı Cənubi Qafqazı militarizasiya olunmuş və silah-sursatla doldurulmuş, barıt çəlləyini xatırladan regiona çevirməyə çalışır: "Ermənistan isə bu prosesdə ənənəsinə sadiq qalaraq vasitə rolunda çıxış edir. Qafqazda yeni münaqişə ocağı yaratmaq məqsədinə xidmət edən bu addımlar İrəvanın ürəyincədir. Lakin Qərbin Cənubi Qafqazda ikinci cəbhə açmaq niyyəti Ermənistanı məhvə sürükləyəcək".

Deputat sözügedən konfransda Ermənistanla hərbi paktın imzalanacağı halda, regionda sabitliyin pozulacağını söyləyib. Müsahibimiz bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını əngəlləyən bu cəhdlər iflasa məhkumdur. İrəvan başa düşməlidir ki, bölgədə münaqişə vəziyyəti yaratmaq və yeni cəbhə açmaq məsələsində Qərbin oyuncağı rolunda çıxış etməklə heç nə qazana bilməyəcək. "Ermənistanın 5 aprel konfransında cəsarətlənərək regionda üçlü hərbi alyans yaratmaq üçün şərait qurması cavabsız qalmayacaq. Baş verənlərə görə Ermənistan və havadarları cavab verəcəklər", - deyə M.Cəfərov əlavə edib.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Təxribatlar gözləniləndir

### Yenidən "fəallaşan" Ermənistanın məqsədi Qərbdən daha çox silah-sursat, maliyyə vəsaiti almaqdır

Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları cəmləşdirilməsi müşahidə olunur.

Uzun müddətdir Qərbin və ABŞ-nin dəstəyi ilə silahlanan və təxribatlara təhrik edilən Ermənistan həmişəki kimi oyun oynayır. Hər zaman görüşdən əvvəl ölkəmizə qarşı təxribatlar törədərək Azərbaycanı ittiham edən Ermənistan yenə də eyni ssenarini davam etdirir.

Amma budəfəki təxribatların arxasında Aİ və ABŞ-nin durduğu açıq-aşkar ortadadır. Aprelin 5-də keçiriləcək üçtərəfli görüş də bunu bir daha təsdiqləyir.

Şərti sərhəddə müşahidə edilən aktivliyə nəzərən Ermənistanın növbəti təxribatlarının gözlənilən olduğu bildirilir. Elə bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi də qarşı tərəfə xəbərdarlıq edib. Qeyd olunub ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq.

Vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcək.

Hərbi ekspert Ədalət Verdiyev məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Ermənistanın Azərbaycanla şərti sərhədə silah, zirehli texnika və şəxsi heyət toplaması birmənalı olaraq gələcək mümkün təxribatlardan xəbər verir. Onun sözlərinə görə, bu, Azərbaycanla Ermənistan arasında formalaşmaqda olan kövrək sülhə ciddi mənfi təsir göstərəcək: "Bu fəaliyyətlər Ermənistanın dövlət maraqlarına qətiyyən uyğun gəlmir. İndiyə qədər baş verən təxribatlar zamanı Ermənistan kifayət qədər ciddi və sarsıdıcı zərbələr alıb. Ermənistanın aprelin 1-dən mayın 28-nə qədərki genişmiqyaslı hərbi toplanışlar keçirməsi, 5000 nəfərə qədər ehtiyatda olan hərbçinin ordu sıralarına çağırılması və onlar arasında mühəndis, kəşfiyyat, artilleriya üzrə mütəxəssislərin üstünlük təşkil etməsi Ermənistanın növbəti təxribatlarının genişmiqyaslı ola biləcəyi ehtimalını irəli sürməyə imkan verir".



Təxribatlar törətməkdə Ermənistanın iki əsas məqsəd güddüyünü deyən ekspert bildirib ki, birincisi, Avropa İttifaqının və Qərbin maraqlarına uyğun olaraq Rusiya hərbi bazasını və sərhədçilərini ərazisindən çıxarmaqdır. Bunun üçün Azərbaycanla təxribatlara başlayaraq həm Azərbaycanı, həm də Rusiyanı bu məsələdə günahlandırmaqla Qərbdən daha çox silah-sursat, maliyyə vəsaiti əldə etməyə çalışır. Beləliklə, Qərbi öz ərazisində təhlükəsizlik üçün qoşunlar yerləşdirməyə istiqamətləndirmək məqsədi güdür.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***



# "Dəmir yumruğ"un Aprel zəfəri

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 2016-cı ilin aprelində "dəmir yumruğ"un zərbəsi ilə düşmən üzərində qazandığı parlaq qələbə Şuşa, Xankəndi zəfərlərimizin başlanğıcı oldu.

Azərbaycan xalqına illərdir susadığı qələbə xoşbəxtliyini yaşadan bu zəfər nəticəsində onilliklərdən sonra işğaldan azad edilən torpaqlarımıza ilk dəfə qədəm qoyduq, Cəbrayılın Cocuq-Mərcanlı kəndinin timsalında dədə-baba yurdlarımıza ilk qayıdış sevincini daddıq.

### Lələtəpədən Şuşaya...

2016-cı ilin aprelində qəhrəman oğullarımız hərb meydanında yağıya divan tutaraq qarşılarında diz çökdürdülər, üçrəngli ay-ulduzlu Azərbaycan bayrağını Lələtəpə yüksəkliyində dalğalandırdılar. Bununla da xalqımıza işğal altında olan digər ərazilərimizin də azad olunacağının xoş xəbərini yetirdilər.

2017-ci il martın 31-də Azərbaycan Ordusunun Aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşü zamanı "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır" deyən Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev də xüsusi vurğulamışdı ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir.

Budur, artıq Azərbaycan xalqı 2016-cı il Aprel qələbəsi ilə başlanğıcı qoyulan və Şuşa, Xankəndi zəfərləri sayəsində məntiqi zirvəsinə ucalan milli hədəfinə çatdığı qürurverici günləri yaşayır. "Dəmir yumruğ"un sarsıdıcı zərbələri ilə torpaqlarımız işğaldan azad edilib, Qarabağda separatizmin kökü kəsilib, bütün ərazilərimizdə şanlı bayrağımız dalğalandırılıb, suverenliyimiz tam bərpa olunub.

Onilliklər ərzində darmadağın edilən Qarabağ və Şərqi Zəngəzur böyük quruculuq meydanına çevrilib, yurd həsrəti çəkən yüz minlərlə keçmiş məcburi köçkünün mərhələli şəkildə öz el-obalarına qayıdışına başlanılıb.

### Qələbəyə aparan yol

İndi fəxrini yaşadığımız qələbələri əldə etmək üçün olduqca mürəkkəb, çətin və uzun bir dövrdən keçməli olduq. 1990-cı ilin əvvəllərində torpaqlarımızın işğalı, müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üz-üzə qaldıq.

Lakin 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ilə qurtuluş yoluna qədəm qoyan Azərbaycan Ümummilli Liderin səyləri, yürütdüyü mükəmməl daxili və xarici siyasət nəticəsində inkişaf etməyə başladı. Eyni zamanda da dövlətin qarşısında duran bir nömrəli vəzifə torpaqlarımızın işğaldan azad edilməsi idi və Ulu Öndər bu istiqamətdə həm daxildə, həm də beynəlxalq arenada mühüm fəaliyyət həyata keçirdi. Qarabağ məsələsini daim beynəlxalq gündəmdə saxlayan mahir siyasətçi ümumilikdə ölkəmizin inkişafı, həmçinin də hərbi gücümüzün artması üçün böyük işlər gerçəkləşdirməyə başladı.

Dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanı böyük inkişaf mərhələsinə yüksəldən, dünyanın sayılıb-seçilən ölkəsinə çevirən Prezident İlham Əliyevin də ötən illər ərzində qarşısına qoyduğu bir nömrəli vəzifə ərazi bütövlüyümüzün və suverenliyimizin təmini oldu və buna görə də müasir ordu quruculuğu işinə xüsusi diqqət yetirdi. Hər ötən il Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun arsenalını ən müasir silah və digər hərbi texnika ilə daha da zənginləşdirdi.

Xüsusi vurğulayaq ki, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Ermənistanla atəşkəslə bağlı razılıq əldə etdiyi müddətdən sonrakı onilliklər ərzində ATƏT-in keçmiş Minsk qrupunun vasitəçiliyi ilə münaqişənin danışıqlar yolu ilə nizamlanması üçün iş aparıldı. Faktiki olaraq, bu zaman ərzində vasitəçi ölkələr danışıqların Ermənistanın xeyrinə olaraq sonsuzadək sürməsinə çalışdılar, münaqişənin güc yolu ilə həlli versiyasını qəbul etmək belə istəmədilər.

Bütün bunlar isə Azərbaycanın səbr kasasını daşırır, digər tərəfdən isə Ermənistanın ölkəmizə qarşı hərbi təxribatları səngimək bilmirdi.

### Ermənistanın məğlubiyyətlər silsiləsinin başlanğıcı

2016-cı ilin yazında növbəti dəfə Ermənistan silahlı qüvvələri təxribata əl ataraq, mövqelərimizi, o cümlədən yaşayış məntəqələrimizi atəşə tutdu, ölkəmizə qarşı hücuma keçdi. Ermənilərin bu təxribatı nəticəsində hərbçilərimizlə yanaşı, içərisində azyaşlının da olduğu mülki şəxslərimiz həlak oldular.

2016-cı il aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun güclü zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı.

Ordumuzun yüksək peşəkarlığının nümayişi olan bu döyüşlərdə qəhrəman döyüşçülərimiz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldular və təmas xəttini dəyişdirdilər. Bütün bu mühüm üstünlüklər təbii ki, sonrakı qələbələrimizin də əldə olunması üçün açar rolunu oynadı.

Dörd gün sürən Aprel döyüşləri zamanı düşmən Azərbaycan Ordusunun gücünə hərb meydanında əyani şəkildə şahid olaraq sarsıldı və bunun ardınca məğlubiyyətlər silsiləsinə düçar olacağını qəti şəkildə anladı. Ermənistanın uzun illər ərzində guya güclü ordusunun olması haqqında yaratdığı mifin də elə mif olduğu üzə çıxdı. Aprel döyüşləri bütün dünyaya əslində Ermənistan ordusunun qorxaqlar, acizlər, fərarilər yığını olduğunu göstərdi ki, bu, sonradan 2020-ci il 44 günlük Vətən müharibəsi, 2023-cü il antiterror tədbirləri zamanı da bir daha faktlarla ortaya çıxdı.

### Gün o gün oldu

Aprel döyüşlərinin ardınca, 2018-ci il may ayının 20-dən 27-nə qədər həyata keçirilən uğurlu əməliyyat nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi.

Uğurlu əməliyyat sayəsində ümumilikdə 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus avtomobil yoluna nəzarət etməyə imkan verdi.

Aprel döyüşləri kimi, Günnüt əməliyyatı da böyük Zəfərə aparan yolda atılan ən mühüm addımlardan biri oldu.

Azərbaycan Silahlı Qüvvələri 2020-ci il 44 günlük müharibədə Ermənistan ordusunu məhv edərək rəsmi İrəvanı kapitulyasiya aktına qol çəkməyə məcbur etdi.

Qəhrəman savaşçılarımız Vətən uğrunda çıxdıqları haqq yürüşündə daim irəli getdilər, düşmən tapdağından azad etdikləri ərazilərimizdən bir qarış belə geri çəkilmədilər. Canlarını Vətənə sipər edən qəhrəman oğullarımız yurdumuzu kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər azad etdilər, bayrağımızı Şuşa zirvəsinə sancdılar.

2023-cü il sentyabrın 19-da başlayıb 20-də ildırım sürəti ilə bitən antiterror tədbirlərində isə silahlı qüvvələrimiz separatçılara ağ bayraq qaldırtdılar, Qarabağda quldur yuvasını məhv etdilər.

Bütün bu əməliyyatlar zamanı da dinindən, dilindən, milliyyətindən asılı olmayaraq, Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi, milli həmrəylik nümayiş etdirdi. Gənclərimiz, yaşlılarımız torpaqlarımızın azad olunması üçün Ali Baş Komandanın Vətən uğrunda "irəli" əmrinə hazır dayandıqlarını bildirdilər.

Xalqımızın hər zaman olduğu kimi, belə taleyüklü anlarda bir yumruğa dönərək həmrəylik göstərməsi bizi ümumi qələbəmizə çatdırdı.

Dövlət-xalq-ordu birliyimiz sayəsində Qarabağ münaqişəsinə son qoyduq, torpaqlarımızı işğaldan azad etdik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etdik. Bu qələbələrlə tariximizdəki ən parlaq və fəxr edəcəyimiz əbədi zəfərlərimizə qovuşduq.

Necə ki, bu möhtəşəm zəfərlərin müjdəsini xalqımıza hələ 2018-ci il iyunun 26-da Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paraddakı nitqində vermişdi: "2016-cı ilin Aprel döyüşlərində, 2018-ci il Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var...

...Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Bu gün isə gəldi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Böyük Zəfərin başlanğıcı

"2016-cı il aprel ayının əvvəlində baş verən Aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Suqovuşan kəndi istiqamətində bəzi mövqelər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı və Goranboy rayonunun Gülüstan kəndi düşməndən azad edildi. Silahlı qüvvələrimizin "məğlubedilməz" erməni ordusu mifini darmadağın etməsi ilə Vətən müharibəsindəki şanlı zəfərimizin bünövrəsi qoyuldu".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat söyləyib ki, dünya hərb tarixində xüsusi yeri olan İkinci Qarabağ müharibəsində əldə etdiyimiz şanlı zəfərin təməli Aprel döyüşləri zamanı qoyuldu. Aprel hadisələri zamanı yaşayış məntəqələrimizi və cəbhəboyu mövqelərimizi intensiv atəşə tutan erməni canilərinin başı "dəmir yumruq"la əzildi. Azərbaycan erməni faşizminə böyük zərbə vurmaqla Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpası üçün yeni şərtlər yaratdı.

Ümumiyyətlə bu, 1994-cü ildə imzalanmış atəşkəs sənədindən sonra qoşunların təmas xəttində baş verən ən böyük hərbi qarşıdurma idi. Azərbaycan Ordusu 2 min hektardan artıq ərazini düşməndən azad etdi. Aprel döyüşlərində ermənilərə məxsus tanklar, zirehli texnikalar və möhkəmləndirilmiş mühəndis qurğuları sıradan çıxarıldı, o cümlədən düşmənin üç yüzdən çox hərbi qulluqçusu məhv edildi və zərərsizləşdirildi. Aprelin 4-də separatçı qüvvələr itirilmiş mövqeləri geri qaytarmaq məqsədilə mövqelərimizə yenidən hücum etsələr də, onlar əsgər və zabitlərimizin şücaəti qarşısında diz çökməyə məcbur oldular", - deyə müsahibimiz bildirib.

Arzu Nağıyev qeyd edib ki, Ermənistan Aprel döyüşləri ilə bağlı müxtəlif ziddiyyətli xəbərlər yaymağa çalışsa da, son nəticədə məğlubiyyətini etiraf etdi: "Təsadüfi deyil ki, Aprel döyüşlərindən sonra Ermənistanın çoxsaylı yüksəkrütbəli hərbi rəsmiləri, eləcə də hərbçiləri işdən qovuldular və ya həbs edildilər. Azərbaycan isə sanki sınaq meydanında idi və yaxın gələcəkdə torpaqlarımızı tamamilə işğaldan azad etmək üçün döyüş təcrübəsi toplayırdı. Döyüşlər zamanı silahlı qüvvələrimizin arsenalında olan hərbi sursatları və texniki avadanlıqları sınaqdan keçirdik. Həmçinin müasir texnika ilə işləyə bilən milli kadrlarımızı ortaya çıxardıq. Ermənistan ordusu isə döyüşə nə qədər hazırlıqsız olduğunu göstərdi".

Deputat yekunda onu da qeyd edib ki, Aprel döyüşləri zamanı ermənilərin əvvəllər öz qoşun hissələri və müdafiə mexanizmləri ilə bağlı yaratdıqları mif darmadağın edildi: "Vətən müharibəsindən öncə aparılan əməliyyatlardan ən mühümü məhz Aprel döyüşləridir. Aprel hadisələri ermənilərə vurulan ən ciddi zərbələrdən biri idi. Burada da təbii ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun rəşadəti, əsgər və zabitlərimizin və xalqımızın sonsuz Vətən sevgisi əvəzedilməz rol oynadı. Bundan başqa, hərbi əməliyyatlar zamanı müasir texnika və texnologiyalardan istifadə edən qoşun növlərinin və kəşfiyyatçıların proseslərdə koordinasiyalı iştirakı öz yüksək nəticəsini göstərdi. Beləliklə, Azərbaycanın zəfəri ilə başa çatan Aprel döyüşləri tariximizə mühüm hərbi qələbə kimi yazıldı. Suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasında mühüm rola malik olan bu döyüşlər tarixin yaddaşında hər zaman qalacaq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Erməni millətçiliyi bəşəriyyətə həm ləkə, həm də təhlükədir



"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovublar. Yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdiriblər. Bu baxımdan, 1918-ci ilin mart hadisələri tarixdə yalnız mülki əhaliyə qarşı törədilmiş soyqırımı kimi tanınmalıdır".

Bu fikirləri Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında deyib. O bildirib ki, 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlanılıb. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilib.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirib. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Komissiya mart soyqırımını, ilkin mərhələdə ermənilərin Şamaxıdakı vəhşiliklərini, İrəvan quberniyası ərazisində törətdikləri ağır cinayətləri araşdırıb. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb. 1919-cu və 1920-ci ilin mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Əslində, bu, azərbaycanlılara qarşı törədilən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, AXC-nin süqutu bu işin başa çatmasına imkan vermədi. Soyqırımının əsl hüquqi-siyasi qiyməti isə Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra verilib.

K.Bayramov qeyd edib ki, 1998-ci il martın 26-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olub: "Erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət Prezident İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Fond bu faciələrlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm layihələr reallaşdırır. Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, habelə Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir".

K.Bayramov bildirib ki, Qubadakı kütləvi məzarlıqda 500-dək insan kəlləsi tapılıb ki, onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara aiddir. Həmin qalıqların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanlarının olduğu sübuta yetirilib. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradılıb. Prezident İlham Əliyev Memorial Kompleksin açılışı zamanı demişdi: "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir".

Deputat vurğulayıb ki, uzun illər bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək və azərbaycanlıların mənfi obrazını yaradaraq özlərinin qəsbkar torpaq iddialarını pərdələyiblər. Vaxt gələcək dünya birliyi erməni millətçiliyinin bəşəriyyət üçün həm ləkə, həm də təhlükəli olduğu qənaətini qəbul edəcək və Azərbaycan xalqına qarşı tarixən törədilən cinayətlərə və soyqırımına obyektiv qiymət verəcək. Prezident İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".



K.Bayramov əlavə edib ki, ermənilərin torpaq iddiasının 1988-ci ildə yenidən baş qaldırması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranmasına, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olub. Ölkə vətəndaşları 30 ilə yaxın müddətdə dünyanın ikili siyasətinin əziyyətini çəkiblər. 44 günlük Vətən müharibəsi 30 il davam edən danışıqların imitasiya naminə aparıldığını ortaya qoyub. Prezident İlham Əliyevin qətiyyətli iradəsi sayəsində Azərbaycan Ordusu dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatlarının 30 ilə yaxın müddətdə edə bilmədiklərini edib və ədalət bərpa olunub. Haqq, ədalət zəfər çalıb.

Xalqımızın əldə etdiyi bu tarixi Qələbə Azərbaycanın bütün şəhidlərinin ruhlarını şad etdi. Dövlət başçımızın dediyi kimi, biz şəhidlərimizin qisasını düşməndən döyüş meydanında aldıq. Bundan sonra bütün düşmənlərimiz də biləcəklər ki, artıq Azərbaycan özünə qarşı istənilən aqressiyanı dərhal və qətiyyətlə dəf etmək iqtidarında olan qüdrətli bir dövlətdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Gəncə də yaşıllaşır

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Gəncədə müxtəlif tədbirlər həyata keçirilir. Onlardan biri də şəhərin müxtəlif ərazilərindəki yaşıllıq zolaqlarına, park və xiyabanlara, yol kənarlarına dekorativ ağac və gül kollarının əkilməsidir.**







Əkilən gül-çiçəklər Gəncə şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində yetişdirilir. Qurulan müasir istixanalarda yerli mütəxəssislərin yetişdirdikləri şitillər kök verəndən sonra torfla qarışıq münbittorpaqlı qablara əkilir, daha sonra isə şəhərimizin müxtəlif ərazilərinə köçürülür.

Cari ilin əvvəlindən başlayaraq Heydər Əliyev və Şah İsmayıl Xətai prospektlərində yerləşən dairələrdə, Cavad xan küçəsində, Nizami Gəncəvi prospektindəki yaşıllıq zolaqlarında, Gəncəçay Park-Bulvar Komplesində, Heydər Əliyev Park-Xiyaban Kompleksinin girişində, "Qala qapıları" Arxeologiya və Etnoqrafiya Muzeyinin qarşısında, Heydər Əliyev adına meydanda, "Xan bağı" istirahət parkında və digər ərazilərdə dekorativ ağac və kollar, eləcə də güllər əkilib.

Gəncədə həyata keçirilən abadlıq və quruculuq işləri çərçivəsində fəvvarələr də əsaslı təmir edilir. Artıq Heydər Əliyev Meydanında olan iki böyük fəvvarə müasir standartlara uyğun fərqli görünüşdə yenidən inşa edilmişdir. İşıq və musiqi effektləri ilə təchiz edilmiş fəvvarələr, şəhərin mərkəzi meydanının ümumi görünüşünə əlavə gözəllik qatmışdır.

Bundan başqa, Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin balansında olan daha 4 fəvvarə də əsaslı təmir edilir. "Xan bağı"nda olan 2 fəvvarə artıq istifadəyə verilmişdir. Şəhərin Cavad xan küçəsindəki 2 fəvvarənin isə əsaslı təmiri davam edir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ədalətə qalib gəlmək mümkün deyil

### Mingəçevirlilər soyqırımı qurbanlarını kədər və qürurla andılar

**Mingəçevir Şəhidlər xiyabanındakı Soyqırımı-abidə kompleksinin qarşısında keçirilən tədbirdə şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının, YAP şəhər təşkilatının, ictimaiyyətin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, birinci və ikinci Qarabağ müharibəsi veteranları iştirak etmişlər.**






1918-ci ildə erməni daşnaklarının törətdikləri soyqırımı zamanı həlak olan vətən övladlarının, torpaqlarımzın azadlığı və yurdumuzun ərazi bütövlüyünün təmin edilməsi yolunda həlak olan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış etmişdir. Vurğulamışdır ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır: "Mərhələ-mərhələ gücləndirilən belə insanlıqdan kənar siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmışlar. Xalqımıza məxsus minlərlə tarixi abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşandan sonra azərbaycanlılar ata-baba yurdlarından qovulmuşlar. Bu deportasiya məqsədyönlü şəkildə həyata keçirilmişdir".

Azərbaycan xalqına qarşı törədilmiş və uzun illər boyu öz siyasi, hüquqi qiymətini almamış 31 mart soyqırımının tariximizin faciəli səhifələrindən biri olduğunu deyən natiq bildirmişdir ki, 1918-ci ildə Bakıda və Bakı quberniyasınn müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Kürdəmir və digər ərazilərdə erməni daşnaklarının və onların havadarlarının silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı nəticəsində on minlərlə dinc sakin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscidlər, qəbiristanlıqlar yerlə yeksan edilmişdir. İ.İsmayılov 1905-ci, 1918-ci, 1948-1953-cü illərdə törədilən hadisələrdən, günahsız insanların qətl edilməsindən və doğma yurdlarından deportasiya olunmasından danışaraq bu siyasətin XX əsrin sonlarında - 1988-ci ildə Qarabağ bölgəsində və ona yaxın ərazilərdə davam etdiyini bildirmişdir: "30 il ərzində bu bölgələrdə törədilən cinayət hadisələri, Xocalı soyqırımı, Malıbəyli, Qaradağlı, Daşaltı faciələri düşmənin başladığı soyqırımın davamı idi. 1988-ci ildən başlayaraq keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi xülyasının reallaşdırılması planlarına yenidən başlanmış, nəticədə Qarabağın dağlıq hissəsi və ətraf rayonlardan yüz minlərlə məcburi köçkün mənfur erməni siyasətinin qurbanı olmuşdur. Amma düşmənin yeritdiyi bu soyqırımı siyasətinə dünya dövlətləri tərəfindən heç bir siyasi qiymət verilməmişdir. Əsl həqiqət yalnız Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində dünya ictimaiyyətinə çatdırılmışdır".

Natiq onu da vurğulamışdır ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, qətiyyəti və səriştəsi sayəsində formalaşan ordumuz 44 günlük Vətən müharibəsində tarixi torpaqlarımızı işğaldan azad etmiş, 2023-cü il sentyabrın 19-20-də isə lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda suverenliyimiz tam təmin olunmuşdur: "Xocalı, Xankəndi, Xocavənd, Əsgəran, Ağdərə yaşayış məskənləri separatçılardan təmizlənmişdir. Hazırda Şərqi Zəngəzur və Qarabağ ərazilərində bərpa-quruculuq işləri aparılır. Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində soydaşlarımızın öz doğma yurdlarına qayıdışı davam edir. Artıq şəhidlərimizin ruhu şaddır. Çünki uğrunda şəhid olduqları torpaqramızın hər yerində Azərbaycan bayrağı dalğalanır".

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Naftalanda şəhid ailələri və qazilər üçün iftar süfrəsi açıldı

**Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Sun City Naftalan" Müalicə Mərkəzində şəhid ailələri və qazilər üçün iftar süfrəsi açılmışdır.**

İftarda şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki Baş Konsulu Recep Öztop, Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynov, din xadimləri, şəhid ailələri, qazilər, Vətən Müharibəsi iştirakçıları, həmçinin yerli və xarici qonaqlar iştirak etmişlər.

Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Vüqar Novruzov çıxış etmişdir. Bildirmişdir ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sabitlik, inkişaf və tolerantlıq bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ramazan ayının mənəvi paklıq, mərhəmət və şəfqət ayı olmasını qeyd edən RİH başçısı bu müqəddəs ayda hər bir möminə cansağlığı, oruclarının qəbul olunmasını arzulamışdır. Şəhid ailələrinin üzvləri və qazilər isə çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.

İftar süfrəsində Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki Baş Konsulu nəfis tərtibatda çap olunmuş müqəddəs "Qurani-Kərim" kitabını qonaqlara hədiyyə etmişdir. Sonra müqəddəs "Qurani-Kərim"dən ayələr və Ramazan duaları oxunmuşdur.

## Qadın sahibkarlığının inkişafında mövcud imkanlar müzakirə edilmişdir

**Şəmkir Rayon İcra Hakimiyyəti Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birlikdə "Qadın sahibkarlığının inkişafında mövcud imkanlar, çətinliklər və perspektivlərin öyrənilməsi" mövzusunda tədbir keçirmişdir.**

Rayonda fəaliyyət göstərən qadın sahibkarların iştirakı ilə keçirilən görüşdə rayon icra hakimiyyətinin məsul əməkdaşları, KOBİA-nın Gəncə-Qazax regionu üzrə koordinatoru, Şəmkir KOB dostu, İqtisadiyyat Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin, Dövlət Məşğulluq Agentliyinin, Dövlət Vergi Xidmətinin, Dövlət Reklam Agentliyinin regional idarələrinin nümayəndələri, həmçinin müvəkkil bankların, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının əməkdaşları iştirak etmişlər.

Maraqlı və diskussiya şəraitində keçən görüşdə çıxış edənlər sahibkarlığa dövlət dəstəyi mexanizmləri, iş adamlarına şamil olunan güzəştlər diqqətə çatdırılmış, banklar tərəfindən verilən güzəştli kreditlər barədə məlumatlar verilmişdir.

Sonra qadın sahibkarların qarşılaşdıqları çətinliklər, onları rahatsız edən problemlər, həmçinin dövlət-sahibkar münasibətləri barədə təkliflər dinlənilmiş, problemlərin həlli yolları müzakirə edilmişdir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Kəndimizə gələn aqronom - robot

**Aqrar sektorda yüksək texnologiyaların tətbiqi günün tələbinə çevrilib. Bununla bağlı dünyada kənd təsərrüfatı robotlarına xərclənən vəsaitin 2023-cü ildəki 7,83 milyard dollardan 2030-cu ildə 29,3 milyard dollara qədər artması proqnozlaşdırılır. Yəni robotların illik orta artım tempinin 20 faizdən artıq olacağı gözlənilir.**



Kənd təsərrüfatı dronları və robatları aqrar sektorda inqilabi dəyişikliklərə nail olmaq gücünə qadirdir. Belə robatlarla artıq yüksək texnologiyalar tətbiq edilir, müxtəlif tipli mürəkkəb işlər yerinə yetirilir. Bu yeniliklər fermerlərə imkan verir ki, öz torpaq sahələrində yüksək texnologiyaların tətbiqi ilə daha böyük nəticələr əldə etsinlər. Həmçinin dronlar da aqrar sektorda daha mürəkkəb işlər görür, məhsuldarlığın artırılmasına xidmət edirlər.

Məlumdur ki, planetdə əhalinin sayı artdıqca, kənd təsərrüfatı məhsularına olan tələbat da çoxalır. Dron və robotlar isə fermerlərə əkin sahələrini daha dəqiq idarə etməklə, tullantıların miqdarını azaltmaqla, resursları səmərəli yönləndirməklə bu problemin həllində kömək göstərirlər. Bu baxımdan proqnoz vermək olar ki, aqrar sektorda yüksək texnologiyaların tətbiqi getdikcə genişlənəcək. Çünki dronların və robotların aqrar sektorun simasını büsbütün dəyişdirmək gücünə qadir olduğu artıq reallıqdır.

Dronlardan kənd təsərrüfatının bir çox sahələrində istifadə olunur. Məsələn, onlarla əkin sahələrinin müxtəlif istiqamətlər üzrə monitorinqinin aparılması qısa müddət ərzində məlumatları toplayıb sistemləşdirməyə və daha səlis proqnozlar verməyə imkan yaradır. Dronlar, həmçinin əkin sahələrində üçölçülü xəritəçəkmə işlərini yüksək dəqiqliklə həyata keçirir, sahəyə verilən gübrənin bitkilər tərəfindən mənimsənilmə səviyyəsini tam müəyyənləşdirir, sahənin suvarılan və su dəyməyən hissələrini asanlıqla təyin edir və hətta bitkilərin xəstəliklərə yoluxma səviyyəsini aydınlaşdırmağa imkan verir. Bunlardan savayı, onlar aqrokimyəvi məhsulların və pestisidlərin bitkilər üzərinə çilənməsini çox dəqiqliklə həyata keçirirlər.

Dronların kənd təsərrüfatında tətbiqi torpaq tədqiqatı və aqrotexniki tədbirlərin daha dəqiq aparılmasına, müşahidələr üçün ayrılan zamana xeyli qənaət edilməsinə, nəqliyyat vasitələrindən istifadəyə, əkin sahələrində işçilərin sayının azalmasına, əməkhaqqı fonduna qənaət edilməsinə, yeni texnologiyaların tətbiqi nəticəsində kənd yerlərində gənc mütəxəssislərin işə cəlb olunmasına imkan yaradır.

Bunlar nəzərə alınaraq son illər innovasiyaların geniş yayılmasının dəstəklənməsi prinsipləri əsasında çevik və işlək inkişaf mexanizmləri formalaşdırılır, yeni idarəetmə strukturları təkmilləşdirilir. Aqrar sahədə innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi istiqamətində mühüm irəliləyişlər əldə olunur. Kənd təsərrüfatı sahəsində innovasiyaların, o cümlədən robotlaşmanın tətbiqi ilə bağlı müxtəlif təcrübələr yaranır, bu istiqamətdə dövlət dəstəyi tədbirlərinin əhatəliliyinin artırılması çərçivəsində müasir texnika və texnologiyaların tətbiqi genişləndirilir. Paralel olaraq kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulan dronlar, robot texnikası və ağıllı idarəetmə üzrə texnoloji avadanlıqlar, həmçinin iqlim və suvarmaya nəzarət üçün aqrometeoroloji cihaz və avadanlıqlar satışına güzəşt tətbiq olunan texnika və texnoloji avadanlıqların siyahısına daxil edilir.

Dünyada baş verən bu yeniliklərin fonunda Azərbaycanda da dronların tətbiqinin genişlənməsi müşahidə olunur. Artıq mütəxəssislərimiz təsdiq edirlər ki, müxtəlif sahələrdə dronların tətbiqi faydalıdır. Məlumdur ki, işğal altındakı torpaqlarımızın azad edilməsi ilə Qarabağın və Şərqi Zəngəzurun ölkənin kənd təsərrüfatına reinteqrasiyasını təmin etmişdir. 2022-2023-cü illər mövsümündə 70 min hektardan çox sahə əkinə cəlb olunmuşdur. Qısa müddət ərzində bu regionlar üzrə işlərin sürətləndirilməsi üçün kifayət qədər kənd təsərrüfatı texnikaları ayrılır. Bu isə o deməkdir ki, azad olunmuş ərazilərdə müasir texnologiyalardan geniş istifadə olunur.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Çayların və Xəzərin sahillərində təmizlik işləri aparılmışdır

**Ölkəmizin ekoloji siyasətinin əsas mahiyyətini insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək təşkil edir.**

Bu məqsədlə dövlət tərəfindən ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə dayanıqlı inkişafın təmin edilməsi, ətraf mühitə minimal zərərli təsir, onun ilkin vəziyyətinin bərpası və qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Lənkəran Şəhər İcra Hakimiyyəti də ekoloji mühitin qorunması istiqamətində davamlı addımlar atır. İcra hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərşivəsində həyata keçirilən növbəti ekoloji aksiya belə addımlardan biri idi. Aksiyada Lənkəran rayonundan keçən çayların və eləcə də Xəzər dənizinin ətraf ərazilərində təmizlik işləri aparılmış, ərazilərdən bərk məişət tullantıları, müxtəlif plastik qablar, polietilen torbalar və digər tullantılar yığışdırılaraq aidiyyəti üzrə poliqonlara daşınmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## "Mənim peşəm, mənim uğurum"

**Sumqayıt Dövlət Universitetində Qüsursuz Nitq Psixologiya Mərkəzinin (QNPM) təşəbbüsü, universitetin Pedaqogika və psixologiya kafedrasının təşkilatçılığı ilə "Mənim peşəm, mənim uğurum" adlı seminar keçirilib.**

Tədbiri SDU-nun filologiya fakültəsinin dekanı, dosent Günel Paşayeva açaraq düzgün peşə seçimi baxımından layihənin əhəmiyyətindən söz açıb. Bildirilib ki, hər bir insanın gələcək həyatını, məqsədini müəyyənləşdirməkdə peşə seçimi mühüm rol oynayır: "Seminarın keçirilməsində də əsas məqsəd gənclərin düzgün peşə-ixtisas seçimi ilə bağlı maarifləndirilmələri, onların təhsil və karyera sahəsində uğurlu inkişafına dəstək olmaqdır".

Pedaqogika və psixologiya kafedrasının müdiri dosent Aytəkin Məmmədovanın moderatorluğu ilə keçən seminarda QNPM-in psixoloq-məsləhətçisi Cavid Əhədov, mərkəzin baş psixoloqu Nuriyyə Vidadiqızı tələbələrə mövzu ilə bağlı faydalı məlumatlar veriblər. Həmin biliklərin praktikada tətbiqi istiqaməti barədə nümunələr göstərilib. Həmçinin onların təqdimatında qrup terapiyası keçirilib.

QNPM-in rəhbəri, defektoloq-loqoped Esmira Qafarova müxtəlif peşə seçimi və ona təsir edən amillər çərçivəsində həyata keçirilən işlər barədə məlumat verdikdən sonra qeyd edilib ki, gənclərin əksəriyyəti peşə seçərkən onun prestijli olmasını əsas tutur. Amma peşəni əmək bazarına görə seçmək lazımdır. Peşə seçimində əmək bazarının tələblərinə uyğun qərar verilməsi hədəf kimi götürülməlidir.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





Məhəmməd Tağı Sidqi -170

## Zülmətə nur saçan maarif fədaisi

**1892-ci ildə kiçik əyalət şəhəri olan Ordubadda yeni bir maarif işığı yanmağa başladı. Burada "Əxtər", yəni "Ulduz" adlı məktəb yaradıldı. Bu məktəbi yaradan Məhəmməd Tağı Səfərov (Sidqi) idi. Görkəmli maarifçi mütəfəkkirin yaydığı bilik ziyası bütün Naxçıvanı bürüdü. M.Sidqi klassik maarifçilərlə yeni nəsil maarifçiləri arasında varislik körpüsü saldı. O, Azərbaycanda milli maarifçiliyin inkişafında ən yaxşı ənənələri yaradanlardan oldu. Ulu Öndər Heydər Əliyev maarif fədaisinin xidmətlərini yüksək dəyərləndirərək demişdir: "Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur".**

Məhəmməd Tağı Sidqi çox qısa - cəmi 49 il ömür yaşayır. Lakin bu ömrü o, xalqının təhsillənməsi naminə fədakar fəaliyyətlə zənginləşdirir, sağlığında müasirləri tərəfindən "böyük ustad", "Xalq müəllimi" adlarını alır. 170 il bundan əvvəl, 1854-cü ildə Ordubadda anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini molla məktəbində alır, sonra mədrəsədə davam etdirir. Burada klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənir, ədəbi dərnəklərdə, şeir məclislərində iştirak edir, bədii yaradıcılıqla məşğul olur. Lakin xalq arasında təhsilə ciddi ehtiyac olduğunu görən maarifçi Məhəmməd Tağı Sidqi Ordubad şəhərində yeni məktəb yaradır.

"Əxtər"in yaranması o zaman təkcə Ordubad üçün deyil, bütün Naxçıvan elləri üçün əlamətdar hadisəyə çevrilir. Köhnə mollaxanalardan fərqli olaraq bura dərslərin ana dilində keçirildiyi bir məktəb idi. O, ruhani məktəblərindən həm də təlim və tərbiyə üsulları ilə fərqlənirdi. "Əxtər"ə rəğbət günbəgün artırdı. Sidqi məktəb üçün əlyazma şəklində ana dili, coğrafiya və hesabdan dərsliklər hazırlamışdı.

1894-cü ildə Sidqi dövrün qabaqcıl ziyalılarının, xüsusilə Cəlil Məmmədquluzadənin xahişi və təkidi ilə Naxçıvana gəlir. Gəldiyi ilk gündən də şəhərin mədəni həyatında fəal iştirak etməyə başlayır. Camaat burada da təxminən "Əxtər" kimi bir məktəbin yaradılması arzusu ilə Sidqiyə müraciət edir. Naxçıvanda eyni quruluşda yaratdığı məktəbə Sidqi "Məktəbi-tərbiyə" adını verir. Bu təhsil ocağında dünyəvi fənlər keçilirdi. Yeri gəlmişkən qeyd edək ki, vaxtilə Sidqinin burada tətbiq etdiyi "Ədəb qaydaları" bu günədək qorunub saxlanır. O zaman uşaqlara etika dərsləri də keçilirdi.

"Məktəbi-tərbiyə"yə hələ ilk dəfə 100-ə qədər şagird qəbul edilmişdi. Bu da məscid məktəblərinə vurulan zərbə demək idi. 1896-cı ildə "Məktəbi-tərbiyə" rus-Azərbaycan məktəbinə çevrilir və o, xalq məktəblər direksiyasının tabeliyinə keçir.

Sidqinin ən böyük arzularından biri azərbaycanlı qızların təhsil alması idi. Uzun sürən mübahisə və təbliğatdan sonra 1896-cı ildə o, "Qız məktəbi"ni təsis edir. Məktəb fəaliyyətə başlayanda orada cəmi 8 qız təhsil alırdı. Sidqi qızlara dünyəvi təhsil verməklə yanaşı, onlara "Töhfeyi-bənat, yainki qızlara hədiyyə" əsərini yazır. Mütəxəssislərin fikrincə, bu əsər indi də tərbiyəvi əhəmiyyətini itirməyib və onun Azərbaycan pedaqoji fikir tarixində öz yeri var.

Məhəmməd Tağı Sidqinin Azərbaycan maarifi qarşısındakı xidmətləri yalnız təşkil etdiyi məktəblərlə bitmir. O, "Tərbiyə" məktəbində müəllim və müdir kimi fəaliyyət göstərdiyi müddətdə "Heykəli-insana bir nəzər", "Puşkin", "Kəblə Nəsir" kimi mətbu, "Mənəviyyati-mədəniyyət", "Həkimanə sözlər", "Yüz il yatandan sonra" kimi ictimai-siyasi, fəlsəfi, etik və elmi-pedaqoji əsərlərini yazmışdır. Bundan əlavə, o, "Nümuneyi-əxlaq", "Coğrafiya xüsusunda məlumati-mücmələ", "Tənviri-əfkar" (Fikirlərin işığında), "Müxtəsər coğrafiya risaləsi" və "Təfhimi-insaniyyət" adlı dəyərli dərsliklər yaratmışdır.

Maraqlıdır ki, maarif mövzusu Sidqinin bədii yaradıcılığında da öz əksini tapmışdır. O, məktəbi obrazlı şəkildə "cəhalət dərdinin dərmanı", müəllimi isə "cəhalət bağının bağbanı" adlandırmışdır. Dünyanın abad olmasının elmlə mümkün olduğunu, digər dilləri öyrənməyin faydasını, kamil insan olmaq qayəsini poetik şəkildə çatdırmışdır. Oğlu Məmmədəliyə ünvanladığı öyüd-nəsihət də bədii şəkildə ifadə olunmuş tərbiyəvi əhəmiyyətli əsərdir.



M.T.Sidqi yaradıcılığının bir hissəsini də klassik lirika janrı, əsasən, qəzəllər təşkil edir. Lakin onun qəzəllərində bu janrın ənənəvi nümunələrindən fərqli cəhətlər çoxdur. Burada şair məhəbbəti deyil, ən çox azadlığı, yeni ictimai baxışları vəsf edirdi.

Görkəmli ədib rus, ərəb və fars dillərindən bir sıra dəyərli nümunələri Azərbaycan dilinə çevirmişdir. Azərbaycan teatrının inkişafına öz töhfəsini vermişdir. Qurbanəli bəy Şərifzadə, Mirzə Nəsrulla Əmirov, Cümşüd Paşa Sultanov kimi ziyalılarla əl-ələ verərək "Həvəskar aktyor dəstəsi" yaratmışdır. Sidqinin istedadı bu sahədə də özünü göstərmiş, o həm aktyor dəstəsinə rəhbərlik etmiş, həm də tamaşaların rejissoru olmuş və aktyor kimi çıxış etmişdir.

M.T.Sidqi elmi-pedaqoji dəyərə malik 7 dərsliyin müəllifidir. Bu dərsliklərin əlyazmaları AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Harada yaşamasından və işləməsindən asılı olmayaraq Sidqi daim yazıb-yaratmışdır. O, qələmini şeirdə, nəsrdə, publisistika və jurnalistikada sınaqdan keçirmişdir. Təsadüfi deyil ki, ədəbi irsinə 300-dən çox qəzəl daxildir. Sidqi "Mənəviyyati-mənəviyyə" adlı irihəcmli mənzumənin, 1912-ci ildə kitab halında nəşr olunmuş "Heykəli-insanə bir nəzər" ədəbi-fəlsəfi traktının, 20-dən çox hekayənin müəllifidir.

Sidqi publisistika sahəsində öz dəst-xətini göstərmişdir. O, "Tərcüman" (Baxçasaray), "Əxtər" (İstanbul), "Həblümətin" (Kəlkətə), "Kaspi" (Bakı), "Nasiri" (Təbriz) və digər qəzetlərlə əməkdaşlıq etmiş, onların səhifələrində maraqlı yazılarla çıxış etmişdir.

Azərbaycan bədii, elmi, ictimai fikrinin ilk daşıyıcılarının böyük bir dəstəsi - Hüseyn Cavid, M.S.Ordubadi, İbrahim Əbilov, Əziz Şərif, Rza Təhmasib, Əliqulu Qəmküsar, Bəhruz Kəngərli və neçə belə fikir-sənət bahadırı özünün müzəffər yürüşünə M.T.Sidqinin xeyir-duası ilə başlamışdır. Bu görkəmli pedaqoq, şair, publisist özünün 49 illik ömrü ilə Naxçıvan maarifində elə bir fırtına qoparmışdı ki, onun əks-sədası bütün Yaxın Şərqə yayılmışdı. M.Şahtaxtlı "Şərqi-Rus" qəzetini nəşr etməyə başlayanda onu alqışlayanlardan biri də məhz M.T.Sidqi olmuşdur.

M.Şahtaxtlı Sidqini qəzetdə işə də götürmək istəyib. Lakin Sidqi 1902-ci il yanvarın 1-də bu təklifə cavabında yazıb: "Mən özümü bu müqəddəs yolda iftixar etməliyəm. Bu, mənim üçün əbədi bir səadətdir. Lakin məni bu yoldan çəkindirən bir maneə varsa, o da ailə vəziyyətimlə əlaqədardır".

Sidqinin həmişə böyük sevgi ilə haqqında söhbət açdığı altı övladından biri oğlu Məmmədəli idi ki, o, ata yolunun davamçısı - müəllim, yazıçı, jurnalist kimi fəaliyyət göstərmişdir. Məmmədəli 1906-1908-ci illərdə "İrşad" qəzetində işləmişdi. 1910-1911-ci illərdə "Molla Nəsrəddin"in müvəqqəti redaktoru olmuşdu. 1913-cü ildə Bakıda müəllim işləmişdir. Eyni zamanda yerli qəzetlərə, "Molla Nəsrəddin"ə məqalələr yazmış, hətta bəzən həvəskar aktyorların tamaşalarında kiçik rollarda oynamışdır. Hətta 1917-ci ildə Bakıda A.M.Şərifzadənin rejissorluğu ilə səhnəyə qoyulmuş "Ölülər" pyesində Şeyx Nəsrullah rolunu ifa etmişdir.

1917-ci ildən Məmmədəli Sidqi "Sovqat" və "Kommunist" qəzetlərində işləmiş və beləliklə, ata yolunu davam etdirmiş, daşıdığı soyadının nüfuzunu uca tutmuşdur. Bu gün isə Məhəmməd Tağı Sidqinin yolunu yüzlərlə mənəvi övladı davam etdirir.

M.T.Sidqinin çoxcəhətli fəaliyyəti maarifçi ədəbi-ictimai mühitin inkişafı tarixində xüsusi mərhələni təşkil edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Səhnə xadimləri

## Unudulmaz aktyor

**Səhnəyə, tamaşaçı qarşısına çıxdığı ilk anlardan diqqəti cəlb etməyi bacaran, alqışlanan aktyorlardan biri idi. Odur ki, Xalq artisti Məmmədəli Vəlixanlı istər teatr səhnəsində, istərsə də kinofilmlərdə epizodik rollarla belə yadda qalır.**



Görkəmli aktyor Məmmədəli Heydərzadə (Vəlixanlı) 1899-cu il martın 15-də Bakıda dünyaya gəlmişdi. Atası Hacı Heydər bu şəhərə Fatmayı kəndindən köçmüşdü, ticarətlə məşğul idi. O, oğlunun oxumasını, savadlı olmasını istəyirdi. Hacı Heydər bu arzu ilə Məmmədəlini "Səfa" mədəni-maarif cəmiyyəti nəzdində fəaliyyət göstərən məktəbə apardı.

Tamaşa etdiyi şəbihlər, "Qaravəlli", "Kosa-kosa" kimi xalq oyunları uşaq ikən Məmmədəli Vəlixanlının yaddaşına silinməz izlər buraxır, özü də fərqində olmadan onu teatr sənətinə həvəsləndirirdi.

Səhnə ilə tanışlığı tez başladı. O zaman hələ "Səfa" mədəni-maarif cəmiyyəti nəzdindəki məktəbdə oxuyurdu. Öyrənməyə böyük maraq göstərən, bacarıqlı, çevik uşaq idi. 1912-ci ildə dövrünün tanınmış aktyorlarından olan Cahangir Zeynalov Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya hazırlayanda Məmmədəliyə də Bədəl rolunu həvalə etdi.

1920-ci ildə Milli Dram Teatrının xor heyətinə işə qəbul edildi. Məmmədəli Vəlixanlı sənət fəaliyyətinin ilk illərində "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl" operalarında xorda oxudu. O vaxtlar bu sənət ocağında opera və operetta tamaşaları da oynanılırdı. Tədricən dram tamaşalarında da kiçik, sözsüz rollarda səhnəyə çıxdı. 1927-1930-cu illərdə həm teatrda işlədi, həm də Bakı Teatr Texnikumunda təhsil aldı.

İstedadlı aktyor 1930-cu illərin axırlarından Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Mirzə Həbib), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), Sabit Rəhmanın "Xoşbəxtlər", "Əliqulu evlənir" və "Nişanlı qız" (Mirzə Qərənfil, Mindilli, Xəlil), Mirzə İbrahimovun "Həyat" (Pardon Qurbanəli), Nikolay Qoqolun "Müfəttiş" (Osip) komediyalarında öz ifası ilə silinməz izlər qoydu. Faciə və dramatik janrda yazılmış Hüseyn Cavidin "Səyavuş" (Kosa), Vilyam Şekspirin "Qış nağılı" (Avtolik), "On ikinci gecə" (Ser Endri), "Maqbet" (Qapıçı), Mehdi Hüseynin "Cavanşir" (Saran), Konstantin Trenyovun bizdə "Düşmənlər" adıyla oynanmış "Lyubov Yarovaya" (Pikalov), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Robinzon), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Əmrah), Fridrix Şillerin "Qaçaqlar" (Vurm), Səməd Vurğunun "Xanlar" (Araq Şəmistan), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Rosselini), Brandon Tomasın "Tələbələrin kələyi" (Əli), Boris Lavrenyovun "Amerikanın səsi" (Skundirell), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Mürsəl kişi), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Dərviş) tamaşalarında uğurla çıxış etdi.

Böyük zəhmət və sevgi ilə çalışan aktyorun əməyi yüksək qiymətləndirildi. Məmmədəli Vəlixanlı teatr sənətimizin inkişafındakı xidmətlərinə görə 1938-ci ildə Əməkdar artist, 1940-cı ildə isə Xalq artisti fəxri adlarına layiq görüldü. İki dəfə - 1949-cu ildə və 1959-cu ildə "Şərəf nişanı" ordeni ilə təltif edildi.

Təəssüf ki, onun parlaq istedadını teatr sənətində olduğu qədər kino sahəsində də göstərmək fürsəti olmadı. Məmmədəli Vəlixanlı yalnız iki filmdə - "Görüş" və "Mahnı belə yaranır" filmlərində çəkildi.

1961-ci il martın 9-da premyerası keçirilən Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasında Xəlil rolunu oynadı. Bu rolla cəmi iki dəfə səhnəyə çıxa bildi. Qəfil düçar olduğu iflic altmış iki yaşlı sənətkarı ömrünün uzun illərini həsr etdiyi səhnədən ayırıb yatağa saldı. Həyatının o qüssəli, çətin günlərində sənət dostları Məmmədəli Vəlixanlını yaddan çıxarmadılar. Ona xəstə olduğu günlərdə ürək-dirək verənlərdən biri də rejissor Mehdi Məmmədov oldu. Mehdi Məmmədov radio üçün hazırladığı "Hamlet" tamaşasında çətinliklə də olsa, Məmmədəli Vəlixanlının səsini məzarçı rolunda lentə yazdırdı.

Görkəmli aktyor 1969-cu il aprelin 12-də dünyasını dəyişdi.

Onun sənət yolunu sonralar oğlu Aqşin Vəlixanlı davam etdirdi. Azərbaycan Dövət Akademik Milli Dram Teatrında çalışan Aqşin Vəlixanlı 1998-ci ildə vəfat etdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Tarixin izi ilə

## Qədim və müasir Basqal

**Azərbaycanda şəhər mədəniyyəti elementlərini özündə yaşadan qədim yaşayış məntəqələrindən olan Basqalın tariximizdə özünəməxsus yeri var. Basqal toponimi çoxmənalı təmiz türk sözü olaraq "qala qur", "qala ucalt" mənalarını ifadə edir. Qədim tarixi mədəniyyətə malik olan Basqal qala və məscidləri ilə çox məşhurdur.**



Vahid memarlıq prinsipləri əsasında qurulan Basqalda Orta əsrlərdən sənətkarlıq, ticarət inkişaf edib. Özünəməxsus mətbəxi, qonaqpərvərliyi, memarlığı ilə seçilən bu diyarı məşhurlaşdıran əsasən kəlağayısı olub.

XVII, XVIII, XIX əsrlərdə Basqal ustalarının hazırladığı ipək məmulatları dünya bazarlarında satışa çıxarılıb. Hindistan, Rusiya, İngiltərə və başqa ölkələrə ixrac olunan çeşidli kəlağayılar, qanovuz, keşmir, tayta, darayı, cecim, mov və digər parçalar xarici bazarlarda və beynəlxalq sərgilərdə nümayiş etdirilərək yüksək qiymətləndirilib.

Bu qədim yaşayış məskəni iki əsas hissədən - qədim Basqaldan və son 70-80 ildə Basqal çayının sağ sahilində salınmış, yəni müasir Basqaldan ibarətdir. Bir ucu Həsənxan bağına, bir ucu Əmrəki dağının ətəyinə, bir ucu da qədim "Qalalar" ərazisinə çatan müasir Basqalda çoxsaylı müasir evlər tikilib. Basqal çayının sol sahili boyunca uzanan yamacda salınmış qədim Basqal isə plan və memarlıq quruluşu baxımından Lahıca bənzəyir.

Hazırda Basqalda I-IX əsrlərə aid "Qalalar" yaşayış yeri, IX-XII əsrlərə aid Niyal qalası, X-XI əsrlərə aid "Qalalar" istehkamı, Şeyx Məhəmməd (XVI əsr) və Hacı Bədəl (XIX əsr) məscidləri, XVII əsrə aid hamam, Qalalar məhəlləsi (XIV əsr), qədim qəbiristanlıq (XVII əsr), Kürəbənd su (XVIII əsr) və Kürəbənd kanalizasiya (XIII-XIV əsrlər) şəbəkələri, Bədəl bulağı (XIV əsr), Qoşabulaq (XVI əsr), Xarabiyan bulağı (XVII əsr), Hacı Cəbi (və ya Çələbi) bulağı (XVIII əsr), Micqohun bulağı (XIX əsr), Dambulu bulağı (XIX əsr), Pahpahqı bulağı (XVIII əsr), Hüseyn bulağı (XIX əsr), Bədo bulağı (XIX əsr), Hacıbağır mülkü (XVIII əsr), Məşədi Məhəmmədin karxanası (XIX əsr), Muğbatın (XIX əsr), Baba dayının (XIX əsr), Bal Əfəndinin (XIX əsr), Hacı Məmmədtağının (XIX əsr) və Bəşir kişinin mülkləri kimi memarlıq abidələri diqqət çəkir. Bundan başqa, Basqal qoruğunun ərazisində 300-dən artıq yaşı olan çinar ağacı var.

Yazılı mənbələrdə Basqal şəhər mədəniyyəti elementlərinə malik olması barədə kifayət qədər məlumata rast gəlinir. XIX əsrin sonlarında Basqalda olan rus şərhçisi Konstantin Lebedev "Qafqaz" qəzetinin 1882-ci il 310-cu sayında dərc edilmiş qeydlərində yazır: "Basqal şəhərinə qəza mərkəzi Şamaxıdan kiçik, lakin zərif və iti yerişli kəhər atla gəldik. Basqal şəhərinə axşam vaxtı yetişdik. Neft lampaları evlərin eyvanını, həyətlərini kifayət qədər işıqlandırırdı. Melodik səs ruhumuzu oxşadı. Çarvadar Məşədi Əzim kişi bu səsin məscid minarəsindən gələn azan səsi olduğunu mənə başa saldı".

Özünəməxsus adları ilə seçilən Dəmirçibazar, Qoşabulaq, Qəlibgah, Xarabiyan, Qalabaşı, Dərəməhəllə Basqalın qədim tarixinə şahidlik edən yadigarlardır. Söhbət o tikililərdən gedir ki, onlardan bir çoxunun ən azı iki-üç əsrlik tarixi var.

Basqalın qədim tarixi araşdırılan zaman Qalabaşı ərazisində şimal qala divarları və Basqal hamamının kürəbəndinin qismən öyrənilməsi, Şeyx Məhəmməd məscidi adı ilə tanınan Basqal məscidi və onun ətrafında, habelə məscidin yan otağı və həyətində arxeoloji tədqiqatlar nəticəsində minillik bir dövrü əhatə edən zəngin mədəni təbəqə - yaşayış qatı olduğu müəyyənləşdirilib. Basqal yaşayış yerinin mədəni təbəqəsi ümumi qalınlığı 2-2,5 metr olan 6 mühüm tikinti qatından ibarət formalaşmışdır. Bəzi nöqtələrdə isə tikinti qatlarının sayı hətta 7-8-ə çatır. Bu isə o deməkdir ki, Basqalda X əsrdən başlayaraq 1000 il ərzində təqribən hər 120-150 ildən bir mövcud tikililər dövriyyədən çıxmış və onların üzərində yeni tikililər meydana gəlmişdir.

Tədqiqatlar zamanı Şeyx Məhəmməd Məscidi daxilində dəmirçi emalatxanası, hovuz, saxsı borulardan və daş kürəbəndlərdən ibarət su və kanalizasiya xətlərinin qalıqları da aşkarlanıb. Hovuzun yanındakı ətrafı və içərisi daşla səliqəli döşənmiş yerin isə ibadət edən insanların dəstəmaz aldığı yer olduğu ehtimal edilir. Tapıntılar içərisində ayrı-ayrı dövrlərə aid rəngarəng çeşidli keramika nümunələrini xüsusi olaraq qeyd etmək lazımdır.

Uzun illər idi ki, basqallılar da, Basqalın tarixi və etnoqrafiyası ilə məşğul olanlar da bu qədim yaşayış məntəqəsinin iki-üç əsrlik keçmişindən bəhs edirdilər. Son illərin arxeoloji tədqiqatları isə artıq Basqalın 1000 illik tarixindən, mədəniyyətindən, sənət və məişət dünyasından xəbər verir. Basqala aid "Qalalar" adlı yaşayış yerindən, habelə yaxınlıqdakı Kürdüvan kəndi ərazisindən tapılmış Qafqaz Albaniyası dövrünə aid maddi mədəniyyət qalıqları daha qədim tarixə malik Basqalın şəhər tipli yaşayış məntəqəsi olduğunu ehtimal etməyə ciddi əsas verir.

2011-ci ilin Azərbaycanda "Turizm ili" elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011-2014-cü illərdə "Basqal" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun inkişafı üzrə xüsusi Dövlət Proqramını təsdiqləyib. Həmin proqramda Basqal qəsəbəsinin geniş mədəni irs və turizm potensialının müasir dövrün tələbatına müvafiq və beynəlxalq standartlara uyğun formada üzə çıxarılması nəzərdə tutulurdu. Qısa bir zamanda nəzərdə tutulan işlər sürətlə həyata keçirildi. 3 oktyabr 2018-ci ildə Prezident İlham Əliyev "Basqal Dövlət Tarix Mədəniyyət Qoruğu haqqında" sərəncam imzaladı.

2022-ci il avqustun 12-də Basqalda səfərdə olan dövlət başçısı yenidənqurma, quruculuq işləri ilə tanış olarkən demişdir: "Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istəyirdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın, - bunu da biz təmin etdik, iş yerlərinin yaradılması üçün yeni imkanlar açılsın. Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Rəssamlarımızın gülüşü

**Bu gün gülüşü bizə bəxş edən təkcə bir-birimizlə münasibətimiz deyil. Belə ki, uzun əsrlərdir ədəbiyyat və incəsənət vasitəsilə biz təlx olmuş ovqatımızı əvvəlki nikbin durumuna qaytarmağa çalışırıq.**



Oxunan satirik hekayə və təmsil, tamaşa etdiyimiz komediya, eşitdiyimiz məzəli mahnı, kitab-jurnallarda və sərgi salonlarında gördüyümüz karikatura və şarjlar bizə bol gülüş bəxş edir, desək, yanılmarıq. Bu mənada aprelin 1-nin bayram kimi qəbul olunması da insanların buna ehtiyaclarının göstəricisidir. Bu fikirlər Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin "Rəssamlarımızın gülüşü" yazısında yer alıb. Yazını təqdim edirik.

Qeyd etmək lazımdır ki, rəsmli satiraya Azərbaycan təsviri sənətində hələ Orta əsrlərdə - miniatür üslubunda çəkilmiş əsərlərin arasında rast gəlmək mümkündür. Sonrakı dövrlərdə bu sahə özünün davamlı təzahürünü 1906-cı ildən nəşr olunmağa başlayan "Molla Nəsrəddin" jurnalında göstərmişdir. Sovet dönəmində isə bu ənənəni bu günə kimi çap olunan "Kirpi" jurnalı davam etdirməkdədir. Azərbaycan rəssamlarının bütün nəsillərinin yaradıcılığında, bəzən hətta özünü tamamilə başqa janrlara həsr etmiş fırça ustalarının (S.Bəhlulzadə, T.Salahov, M.Abdullayev və s.) bədii irsində insanlara gülüş bəxş edən karikatura və şarjlara rast gəlmək mümkündür. Bununla belə, gülüşə bədii münasibəti yaradıcılığında geniş yer ayıran sənətkarlarımız da az olmayıb. Ə.Əzimzadə, Q.Xalıqov, H.Haqverdiyev, Nəcəfqulu, İ.Axundov, K.Kazımzadə, A.Quliyev, B.Hacızadə, B.Qasımxanlı, Y.Səmədov, Elturan, H.Nəsiroğlu, S.Soltanlı, S.Cəfərli, Y.Əsədli və s. rəssamların yaradıcılığında həyatımızın çox müxtəlif sahələrinə özündə satirik münasibəti əks etdirən karikaturalar görmək mümkündür.

## Gənclər Kitabxanasında "Narkomaniya bəşəriyyətin faciəsidir" adlı disput təşkil edilib

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Bakı Dövlət Universitetinin "İnformasiya və sənəd menecmenti" fakültəsinin tələbələri gənc oxucuların iştirakı ilə "Narkomaniya bəşəriyyətin faciəsidir" adlı disput təşkil edib.**



Kitabxananın Elmi işlər üzrə direktor müavini Günay Həsənova sağlam cəmiyyətin formalaşması üçün narkomaniya ilə mübarizənin mühüm əhəmiyyətə malik olduğunu bildirib. "Bu istiqamətdə yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaq və maarifləndirmə tədbirlərində iştirak etmək hər bir vətəndaşın borcudur. Prezident İlham Əliyevin imzaladığı sərəncamla qəbul edilən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"da maarifləndirmə məsələlərinə xüsusi yer verilir. Kitabxanada bu səpkidə mədəni-kütləvi tədbirlər, sosial aksiyalar keçirilir. Eyni zamanda kitabxananın fondunda narkomaniya və onun faciəvi nəticələri mövzusunda qələmə alınan ədəbiyyat nümunələri var", - deyə o əlavə edib.

Tədbirdə "İnformasiya və sənəd menecmenti" fakültəsinin tələbələrinin "Narkomaniya gələcəyimiz üçün böyük təhlükədir", "Reabilitasiya mərkəzlərində narkotik istifadəçilərinə göstərilən qayğı", "Sağlam gənclik, sağlam nəsil naminə narkomaniyaya yox deyək", "Narkomaniyaya qarşı həyata keçirilən tədbirlər" mövzusunda çıxışları dinlənilib.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**2024-2025-ci tədris ili üçün**

**"HƏRBİ TİBB"**

**İXTİSASINA TƏLƏBƏ QƏBULU ELAN EDİR**

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində "Hərbi tibb" ixtisası üzrə tədris əyani formada Azərbaycan dilində aparılır. Təhsil müddəti 6 ildir.

"Hərbi tibb" ixtisasına cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, sentyabr ayının 15-dək 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşdan 23 yaşadək kişi cinsli hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilir.

**SƏNƏDLƏRİN QƏBULU:**

"Hərbi tibb" ixtisasına qəbul olmaq istəyən namizədlər 1 aprel 2024-cü il tarixdən 30 aprel 2024-cü il tarixədək ərizə ilə Naxçıvan Dövlət Universitetində yaradılmış sənəd qəbulu komissiyasına müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

**QEYD:**

- *Namizədlər hər hansı səbəbdən "Hərbi tibb" ixtisasında təhsil almaqdan imtina etdikləri halda, Naxçıvan Dövlət Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.*
- *Naxçıvan Dövlət Universitetinin "Hərbi tibb" ixtisasına keçirilən müsabiqədən sonra bu ixtisas üzrə boş yerlər qalarsa, bu yerlərin Azərbaycan Tibb Universitetinin müvafiq ixtisasına sənəd vermiş, həkim komissiyasından keçmiş və müsabiqə şərtlərini ödəmiş abitruyentlərin hesabına doldurulmasına etiraz etmirik.*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN "HƏRBİ TİBB" İXTİSASINA QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR**

Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Naxçıvan Dövlət Universitetinin "Hərbi tibb" ixtisası üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə dekanlığının sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər "Hərbi tibb" ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələri əsasında qəbul edilirlər.

"Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edir və bütün növ təminatlarla (geyim, qida və s.) təmin edilirlər. "Hərbi tibb" ixtisasına qəbul olmuş şəxslər 4-cü kursadək Naxçıvan Dövlət Universitetində və kliniki bazalarda, son 2 ili isə birbaşa Hərbi hospitalda və hərbi şəraitdə təhsil alırlar. "Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər təhsil müddətində müəyyən edilmiş məbləğdə müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Naxçıvan Dövlət Universitetində yaradılmış komissiya tərəfindən qəbul olunur (Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universiteti).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

Əlavə məlumat Naxçıvan Dövlət Universitetinin internet saytında **(www.ndu.edu.az)** yerləşdiriləcək.

**Əlaqə:** Telefon: (+99436) 544 08 61 (2700), (+994) 503690000, (+994) 602088800
Faks: (+99436) 545 72 88
E-poçt: **info@ndu.edu.az; admin@ndu.edu.az**

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## pirotexniki vasitələrin satınalınması məqsədilə ikimərhələli *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 08 aprel 2024-cü il saat 17.00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016**

***Tender komissiyası***

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR
AZƏRBAYCAN
Qisas alındı
İnsanlığa qarşı törədilmiş ən qəddar cinayət
106 il əvvəl törədilmiş vəhşət
Laçına dönüş davam edir
Xocalıda insan qalıqları aşkar edilib
Azərbaycanın COP29-a hazırlıq səviyyəsi yüksək dəyərləndirilir
Qərbin regiona müdaxilə cəhdləri iflasa məhkumdur
Fransa vədləri ilə Ermənistanı uçuruma aparır

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Hayastanda xalqın Paşinyana etimadı azalır

## Hakimiyyət reytinq üçün 42 min dollar xərcləyib

Hayastanı "xoşbəxt ölkə" kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, bu ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır.



Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadan ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir.

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin inkişafı, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Hayastana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Hayastanı tərk ediblər. Deməli, Hayastanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, bu məsələdə də bank rəhbərləri inamsızlıq ucbatından "Hayastan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Hayastanda son 3 il ərzində sənayeyə kredit qoyuluşları 42 milyon dollar azalıb.

Belə vəziyyətdə Hayastan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən 6 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərə çarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Hayastan baş nazirinin aparatı isə dövlət və dövlətçilik haqqında ictimai təsəvvürlərin araşdırılması üçün "AM Partnırz Konsaltinq Kampni" MMC ilə 16 milyon 755 min dramlıq (42 min 605 dollar) müqavilə imzalayıb.

"4rd.am" nəşrinin yazdığına görə, müqavilənin təsvirindən anlaşılır ki, tədqiqat Ermənistan sakinlərinin dövlətlə bağlı qavrayışları, mövqelərin təhlili, risklərin qiymətləndirilməsi və idarə olunması üçün aparılır. Bildirilir ki, Nikol Paşinyanın səlahiyyət müddətinin bitməsinə 730 gün, demək olar 2 il qalıb və baş nazir kreslosunu tərk etməkdən narahatdır. Məsələ burasındadır ki, o, reytinqinin aşağı düşməsinin və bərabərləşməsinin fərqindədir və müəyyən qədər səs toplasa belə, bu bəs etməyəcək. Onun işinə və şəxsiyyətinə qarşı inamsızlıq yolverilən həddi keçib.

Qeyd edək ki, iqtidar mütəmadi olaraq daxili istifadə üçün gizli sorğular keçirir. Yerli medianın yazdığına görə, bir neçə gün əvvəl Paşinyana yeni bir sosial sorğu göstərilib və nəticəsi baş naziri əsəbiləşdirib. Qeyd olunur ki, sorğuya əsasən, baş nazirin reytinqi 21-23 faiz aralığında olub. Yekunda Paşinyan özünün ən etibarlı adamlarına reytinqinin bundan da aşağı düşməməsi üçün ona gələcək fəaliyyət proqramını təqdim etməyi tapşırıb.

Xatırladaq ki, ötən ay da sosial şəbəkədə aparılan sorğunun nəticələrinə görə, baş nazirin nüfuzu azalaraq 25 faizə düşmüşdü. "Lragir" qəzetinin verdiyi xəbərə görə, əldə edilən məlumata əsasən, rəqəmlər yenə də reallıqdan tamamilə çox uzaqdır: "Təxminən bir ay əvvəl gizli rəsmi kanallarla aparılan sorğunun nəticələrinə görə, Paşinyanın reytinqi 45 faizə düşmüşdü. Son hadisələrin, ötən aylarda yüksəksəviyyəli istefaların Paşinyanın reytinqinə daha ciddi zərbə olduğu heç kimdə şübhə doğurmur. Yenidən sorğu keçirilsə, yəqin ki, nəticələr baş nazir üçün daha ağır olar".

Görünən odur ki, Paşinyan hakimiyyəti getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Hayastanda vəziyyətin daha da pisləşməsi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Fəsil dəyişikliyi sağlamlığımıza necə təsir edir

Yazın gəlişi ilə təbiət canlanır, ətraf aləm oyanır. Gecələrin qısalması və günlərin uzanması kimi faktorlar bədənin hormon tarazlığını dəyişir.

Fəsil dəyişikliyi zamanı ona uyğunlaşmaqda çətinliklə üzləşənlər olur. Bu zaman baş qaldıran xəstəliklər müxtəlif problemlərə yol açmaqla insanların özlərini narahat hiss etmələrinə səbəb olur. Yuxu nizamında baş verən dəyişikliklər isə orqanizmin yetərincə dincəlməməsinə, davamlı yorğunluğa, unutqanlığa və sairəyə səbəb olur.

### Təmiz hava, fiziki aktivlik, mövsümi qidalanma tövsiyə edilir

Hava şəraitinin dəyişməsi insan orqanizmində əksər hallarda özünü müəyyən dəyişikliklər, bir sıra hallarda xəstəliklərin baş qaldırması ilə göstərir. Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən həkim-terapevt Rəsmiyyə Atakişiyeva deyir ki, mövsüm dəyişikliyi orqanizm üçün stres mənbəyidir: "Orqanizmdə gedən bütün proseslər neyrohumoral tənzimin təsiri nəticəsində baş verir və stres zamanı bu tənzim arasında tarazlıq pozulur. Bu da orqanizmin immunoloji sisteminə öz təsirini göstərir, psixo-emosional pozğunluqların yaranmasına və orqanizmin müdafiə funksiyasının zəifləməsinə gətirib çıxarır. Buna görə də hər hansı bir virus infeksiya ilə təmasda olduqda, bu xəstəliyə yoluxma ehtimalı daha çox olur. Yaz fəslində ağacların çiçəklənməsi, tozlanma hadisələrinin baş verməsi havada allergik komponentlərin artmasına səbəb olur ki, bu da bronxial astma, allergik riniti və dəri xəstəliyi olan insanlarda kəskinləşmələrin yaranmasına səbəb olur. Yaz fəsli ölkəmizdə xüsusilə sevilir, qarşılanır. Novruz bayramı ərəfəsində və sonra süfrəmizdə yüksək kalorili şirniyyatlara, qidalara üstünlük verilir. Buna görə də nevroz, şəkərli diabet, ürək və qan-damar sistemi xroniki xəstəlikləri olan insanlar üçün problemlər yaranır".

R.Atakişiyevanın sözlərinə görə, yaz fəslində insanların günəş şüaları ilə daha çox təmasda olması dəridə sintez olunan D vitamininin miqdarını, xoşbəxtlik hormonu olan serotinin qanda miqdarını artırır. Bu da təbii ki, həm immunitetin yüksəlməsinə, həm də əhvali-ruhiyyənin artmasına səbəb olur. Beləliklə, qış fəslində orqanizmdə azalan A, D, B vitaminləri və sink bərpa edilir. Bu vitaminlərin çatışmazlığı nəticəsində yaranan yorğunluq, yuxululuq, dəridə quruluq, saç tökülməsi və sümüklərin kövrəkləşməsi tədricən aradan qalxır.



"Fəsil dəyişikliyi zamanı insan ilk növbədə orqanizmin vəziyyətini düzgün qiymətləndirməli, özünü öncədən hazırlamalıdır. Bunun üçün bol maye qəbul etməyi, mövsümə uyğun meyvə-tərəvəzlərlə qidalanmağı, təmiz havada gəzməyi və fiziki aktivliyi tövsiyə edirik. Hər kəs bu deyilənlərə riayət etsə, orqanizmini təbiətin, mövsüm dəyişikliyinin zərərli amillərindən müdafiə etmiş olar", - deyə terapevt bildirir.

### Yazın gəlişinin psixoloji fəsadları

Fəsil dəyişikliyi bir sıra hallarda psixoloji fəsadlar da törədir. Mütəxəssislər yazın ilk həftələrində insanlarda əhval dəyişikliyinin müşahidə edildiyini vurğulayırlar. Bu mövzu ilə bağlı qəzetimizə danışan psixoloq Təhminə Cəfərova deyir ki, qışdan yaza keçid etdikdə psixoloji fonda müəyyən dəyişikliklərin müşahidə olunması təbiidir: "Havalar istiləşdikcə evə qapanma istəyi bizi tərk edir. Açıq havada gəzmək, əylənmək istəyirik, bir sözlə pozitivliyə daha meyilli oluruq. İnsanlarda yaşamağa həvəs sevinci formalaşır".

T.Cəfərova mövsüm dəyişikliyinin kimlərə, hansı şəkildə təsir edəcəyinin insanların temperament tipindən asılı olduğunu bildirir: "Qışdan yaza keçid etdikdə bu, melanxolikə ciddi təsir edə bilər. Amma fleqmatik üçün bu çox da böyük bir fərq etməsə də, melanxolik və sanqvinik bunu daha optimist, pozitiv surətdə qəbul edəcək. Bu psixoloji problemləri necə həll etmək isə hər bir insanın fərdi xüsusiyyətlərindən asılıdır. Depressiyadan əziyyət çəkən insanlar daha çox günəşdə olmalı, mühiti dəyişmək üçün idmanla məşğul ola, dil kurslarına gedə bilər, həyatlarına yeni insanlar daxil etməyə çalışmalıdırlar. Bu, insan səhhətinə olduqca çox müsbət təsir göstərir. Mövsümi dəyişiklik zamanı yaranan depressiya yüngül formadadırsa, insan bununla özü də mübarizə apara bilər. Lakin əgər bu, xroniki hal alıbsa, insan özü bununla tək mübarizə apara bilmirsə, o zaman mütəxəssisə müraciət etməlidir".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4248
Sifariş 702

Qiyməti 60 qəpik